

15

## Oleq Bondarenko: “Qlobal böhran bütün dünyaya təsir edəcək”

# İşğaldan azad olunan ərazilərdə quruculuq və inkişaf dövrü başlayır!




2

*Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər*


# Səs

№ 093 (6534) **27 may** 2022-ci il. **Qiymətı 60 qəpik**


# Ermənistandakı siyasi böhran sülhün əldə olunmasına əngəllər yaradır



5

**Erməni müxalifəti ilə hakimiyyətin bəzi fikirləri üst-üstə düşür?**

## “Türkiyədəki həmkarlarımızın Azərbaycana səfərini təşkil etdik”



4



4

## “Ölkəmizdəki siyasi sabitlik uğurlarımızın vacib əsaslarından biridir”



## Azərbaycan və Türkiyənin gələcəyə birgə addımlamaq mesajı!







7




9

## Rusiya telekanalından Azərbaycanın ərazi bütövlüyünə qarşı daha bir hörmətsizlik!

Moskva "Pervıy kanal" rəhbərliyinin və bütövlükdə Rusiya telekanallarının təxribatçı əməllərinə nə qədər göz yumacaq?



16

## “Roma” Konfrans Liqasının ilk qalibi oldu

## Sərhədçilərimiz Laçın dəhlizini bağladı: Balasanyan həbs olundu!

**Sərhədçilərimiz Laçın dəhlizini bağladı**
**Balasanyan satqın çıxdı və həbs olundu**



## “Ukrayna ərazisindən bir parça Rusiyaya vermək..?”



14






# İşğaldan azad olunan ərazilərdə quruculuq və inkişaf dövrü başlayır!

## *Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər*



***Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olublar.***

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verilib ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda da səfərdə olublar. Dövlətimizin başçısı və birinci xanım Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlqoyma mərasimində iştirak ediblər.

Təkxətli dəmir yolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənib və proses davam edir. Dəmir yolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanıb. Bu məsafədə yük qatarları hərəkət edir. Tikinti işləri Türkiyənin "Kalyon RSY İnşaat Adi Ortaklığı Ticari İşletmesi" şirkəti tərəfindən həyata keçirilir. Daha sonar Prezident İlham Əliyev Soltanlı stansiyasının təməlini qoyub.

Dünən həmçinin "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının da təməlqoyma mərasimi olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, Cəbrayıl-Naxçıvan-Ağrı



(Türkiyə) yarımstansiyalarına, oradan isə Türkiyə enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, 1000 meqavat yükötürmə qabiliyyətinə malik olmaqla ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerjisisteminə qoşmaq, "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyalarının, o cümlədən "BP Cəbrayıl" Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyasını həyata keçirmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca əhəmiyyətli hadisədir.

Bir çox dövlətlərin marağında olduğu və beynəlxalq əhəmiyyət kəsb edən Azərbaycan-Türkiyə-Avropa ölkələrarası layihənin həyata keçirilməsi üçün üçmərhələli planlaşdırma aparılıb. Bunun üçün birinci mərhələdə istismar müddəti başa çatan və işğaldan azad edilən ərazilərə ən yaxın məsafədə yerləşən 330 kilovoltluq "Ağcabədi" və "İmişli" yarımstansiyaları genişləndirilərək tamamilə yenidən qurulacaq. Daha sonra Prezident İlham Əliyev "Cəbrayıl" enerji qovşağının təməli qoydu.

Bildirildi ki, "Ağcabədi" yarımstansiyasından 132, "İmişli" yarımstansiyasından isə 130 kilometr məsafədə Cəbrayıla yüksək gərginlikli 330 kilovoltluq ötürmə xətti çəkiləcək. Ən əsası isə Cəbrayılda 330 kilovoltluq qovşaq yarımstansiyası tikiləcək. "Cəbrayıl" enerji qovşağının inşası nəticəsində Qarabağ və Şərqi Zəngəzurun yeni yaradılmış ötürücü elektrik şəbəkəsinin etibarlılığı və dayanıqlılığı artırılacaq. İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerjisistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikanın Şahtaxtı kəndinə 255 kilometr məsafədə ikidövrəli olmaqla 330 kilovoltluq ötürmə xətti çəkiləcək və 330 kilovoltluq "Şahtaxtı" yarımstansiyası tikiləcək. Üçüncü mərhələdə isə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün Naxçıvanın Türkiyəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirmək üçün Avropa enerji standartlarına uyğun əlavə çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr məsafədə ikidövrəli 400 kilovoltluq elektrik verilişi xətti çəkiləcək.

Diqqətə çatdırıldı ki, "Cəbrayıl" yarımstansiyasının rəqəmsal idarəetmə sistemi yaradılacaq. Yarımstansiyada 330 və 110 kilovoltluq açıq, 10 kilovoltluq qapalı paylayıcı qurğular və müasir idarəetmə mərkəzi inşa olunacaq. Mövcud layihələrin yarımstansiyaya inteqrasiyası ilə bərabər, gələcəkdə burada genişlənmə imkanları nəzərə alınmaqla əlavə əsas



və köməkçi qurğuların yerləşməsi də nəzərə alınacaq.

Qeyd edək ki, "Cəbrayıl" enerji qovşağı beynəlxalq enerji dəhlizinin yaradılması sahəsində ölkəmizin əhəmiyyətinin bariz nümunəsidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Zəngilan rayonuna da səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hava limanında görülən işlər barədə məlumat verilib. Bildirildi ki, perronda torpaq işləri tamamlanıb, uçuş-enmə zolağında asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcək.

Aeroportun hava hərəkəti qülləsinin tikintisinin iyulda tamamlanması planlaşdırılır. Avqustun sonunda isə terminal binasında işlərin başa çatdırılması nəzərdə tutulur. Beynəlxalq standartlara uyğun inşa edilən terminal binası saatda 200 sərnişinə xidmət edəcək. Terminal daxilində VIP zallar, kafelər, tibb xidməti və ofis otaqları yaradılacaq. Avadanlıq və materiallar İtaliya, Almaniya və Türkiyədən gətirilib.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika habına çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Onu da deyək ki, işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra beynəlxalq statuslu daha iki aeroport tikilməkdədir. Onlardan biri də Zəngilan hava limanıdır. Digəri isə Laçın rayonunun ərazisində inşa olunur.

# Azərbaycan və İsrail prezidentləri arasında telefon danışığı olub



**Mayın 26-da İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. İsrail Dövlətinin Prezidenti qarşıdan gələn 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.**

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə İsrail Dövlətinin Prezidentinə minnətdarlığını bildirib. Prezidentlər Azərbaycan-İsrail əlaqələrinin inkişafından məmnunluq ifadə edib, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildiriblər.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# HARADAN HARAYA:

## Türkiyə-Azərbaycan qardaşlığı və iki liderin ən çətin anların sınağından çıxan tarixi zəfəri

**Bəli, bu dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, ”Bir millət, iki dövlət” tezisinə əsaslanan reallığın təcəssümü, ”Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimiz” - deyən böyük Mustafa Kamal Atatürkün sözlərinin sübutu, böyük türk qardaşlığının təntənəsi idi. Sözsüz ki, bu, danılmaz faktordur ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var.**



*AZƏRBAYCAN PREZİDENTİ: “Biz dünya miqyasında bir-birinə ən yaxın ölkələrik və ölkələrimiz çox böyük sınaqlardan keçibdir”*

*TÜRKİYƏ PREZİDENTİ: “Azərbaycan yalqız deyil, Türkiyə Azərbaycanın yanındadır”*

Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq. Qeyd edək ki, Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: ”Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır”. Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Tarixi dostluq, qarşılıqlı etimad və yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri gündən-günə möhkəmlənir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: ”Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk”. Bəli, bu gün Türkiyə-Azərbaycan münasibətləri öz tarixinin ən yüksək zirvəsindədir. Tarix boyu Türkiyə və Azərbaycan heç vaxt bir birinə bu qədər yaxın olmayıblar. Vaxtilə Ermənistanın törətdiyi soyqırımından azərbaycanlı mülki əhalini xilas etmək istəyən Azərbaycana Türkiyə yardım əlini uzada bilmədi. Amma indi Türkiyə tam şəkildə Azərbaycanın yanındadır, ölkələrimiz arasında qarşılıqlı dəstək potensialı tamamilə realizə olunur. Bu gün tarixi, mədəniyyət və digər əsaslarla yanaşı, prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın yürütdükləri siyasət iki qardaş ölkə arasında münasibətlərin ən yüksək zirvəyə qalxmasını şərtləndirən əsas amildir. Bu gün Türkiyə və Azərbaycan ötən əsrin 90-cı illərindəki ölkələr deyil, Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın sayəsində bütün istiqamətlərdə müstəqil qərar verən, milli maraq və mənafelərini müdafiə etməyi və istənilən təzyiqə müqavimət göstərməyi bacaran güclü dövlətlərdir. Qardaş Türkiyə torpaqlarımızı geri almaqda Azərbaycanla birlikdə mübarizə apardı. Dünyada heç bir belə iki dövlət tapılmaz ki, bir-birinə bu cür dəstək versin. ”Bir millət, iki dövlət” meydanda da özünü açıq şəkildə göstərdi və göstərməkdədir. Türkiyə İkinci Qarabağ müharibəsinin ilk günündən sonuna qədər ”Dost və qardaş Azərbaycanın yanındayıq, yanında olmağa davam edəcəyik” dedi. Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın obyektiv və sərt bəyanatları, atdığı qətiyyətli addımlar, düşünülmüş diplomatik gedişləri, xüsusən ”... Əgər bu münaqişədə qırmızı xəttimiz keçilərsə, inciməsinlər, babamızın oğlu da olsa, gözümüz görməz” ifadələri Azərbaycanın işğalda olan ərazilərini qaytarmaq uğrunda aparılan müharibənin uğurlarına böyük təsir göstərdi.

2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin imzalanması bunun əyani təsdiqidir. Qarabağın tacı Şuşa şəhərində iki dost arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu. İki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Azərbaycan və Türkiyənin liderliyi ilə yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcı kimi dəyərləndirilir. 44 günlük Vətən müharibəsinin uğurlu davamı olan Şuşa Bəyannaməsi, həmçinin ermənilərə və onların havadarlarına da tutarlı bir cavab oldu. Bununla da Qarabağ məsələsinin başa çatdığı, münaqişənin tamamilə həll olunduğu qətiləşdirildi. Bu tarixi sənədin imzalanması bir daha təsdiq etdi ki, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri gündən-günə möhkəmlənir. Bütün bunlar hamımızı qürurlandırır Bu gün iki qardaş ölkənin sarsılmaz, möhkəm bağlılıqları bütün sahələri əhatə etməsi ilə yanaşı, qlobal dünyaya yeni çağırışlar sərgiləməkdədir.

### BİNƏLİ YILDIRIM BU GÜN TÜRKİYƏ -AZƏRBAYCAN BİRLİYİNİN, QARDAŞLIĞININ HEÇ VAXT BİR-BİRİNƏ BU QƏDƏR YAXIN OLMADIĞI MESAJI BÜTÜN DÜNYAYA GÖNDƏRƏ BİLDİ

Türkiyənin sabiq baş naziri Binəli Yıldırımın Türkiyə ilə Azərbaycan arasında olan müttəfiqlik münasibətlərinin bu qədər yaxın olmadığı mesajını dünyaya çatdıra bildi. ”Vaxtilə Əbülfəz Elçibəy dörd vertolyot istədi, Türkiyə onları verə bilmədi. Bu gün isə Preizdent Ərdoğan bildirir ki, ”Qarabağ sizin haqq işinizdir”, deyə xatırladan Binəli Yıldırım həm də bir mühüm amili diqqətə çatdırmaq istəyib ki, bu gün Türkiyə-Azərbaycan münasibətləri tarixin ən yüksək zirvəsindədir və tarix boyu Türkiyə və Azərbaycan heç vaxt bu qədər bir-birinə yaxın olmayıblar. Eyni zamanda, vaxtilə Ermənistanın törətdiyi soyqırımından azərbaycanlı mülki əhalini xilas etmək istəyən Azərbaycana Türkiyə yardım əlini uzada bilməmişdi. Amma indi Türkiyə tam şəkildə və birmənalı olaraq Azərbaycanın yanındadır, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri siyasət iki qardaş ölkə arasında münasibətlərin ən yüksək zirvəyə qalxmasını şərtləndirən əsas amildir!

### “BİR MİLLƏT, İKİ DÖVLƏT”İN REALLAŞAN QARDAŞLIĞIN

Türkiyə də 90-cı illərin Türkiyəsi deyil. Heç Azərbaycan da o Azərbaycan deyil. Hər iki dövlət öz müstəqil inkişaf yolunu tutub, möhkəmlənib. Öz ayaqlarının üzərində dayanıb. Türkiyə öz bölgəsini də aşaraq dünya gücünə çevrilmək yolunda irəliləyib. Azərbaycan Qarabağda qələbələr qazanaraq qalib ölkə kimi başqa xalqlara da ümid, ruh verib. Azərbaycan və Türkiyə indi daha fərqli birgəlik dövrü yaşayır. ”Bu gün sizinlə bərabər olmaq mənim üçün böyük xoşbəxtlikdir. Bu gün bu gözəl mərasimdə Azərbaycan Prezidentinin iştirakı Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür”. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Rizə-Artvin Hava Limanının açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Prezident vurğulayıb ki, biz hər zaman bir yerdəyik - xoş günlərdə də, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərib: ”İlk saatlardan savaşın son gününə qədər mənim qardaşım bizim yanımızda idi, qardaş Türkiyə xalqı bizim yanımızda idi. İkinci Qarabağ savaşı bizim müştərək, şanlı tariximizdir, 30 illik işğala son qoyduq. Savaşın ilk günündə hörmətli Prezident, qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğanın ”Azərbaycan yalqız deyil, Türkiyə Azərbaycanın yanındadır” deməsi bir çoxu üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər, Şuşa şəhərində Azərbaycanın bayrağı ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi. Azərbaycan xalqı bu qardaşlığı heç vaxt unutmayacaq”. Bəli, bu faktlar bir daha onu göstərir ki, bu gün trixi köklərə bağlanan qardaşlıq birliyi bundan sonra da daha da möhkəmlənəcək. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Qırx dörd günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya ”Azərbaycan tək deyil” mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan ”Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür” bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - ”Bir millət, iki dövlət” birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: ”Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq”.

Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbaycanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Göründüyü kimi, bütün bunlar bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir. Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin ”Bir millət, iki dövlət” kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Tezliklə, qardaş Türkiyə bu sınaqdan da üzüağ çıxacaq, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə də iki qardaş dövlət həmişə bir-birinin yanındadır. Dövlət başçımızın dediyi kimi: ”Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq”.

### GÜCLƏNƏN BİR AZƏRBAYCAN, GÜCLƏNƏN BİR TÜRKİYƏ VARDIR

Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin ”Bir millət, iki dövlət” kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Çünki bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə bağlı olan, bir-birinə bu qədər yaxın münasibətlərdə olan ölkələrə rast gəlmək mümkün deyil. Tarixin çətin sınaqları ilə üz-üzə qaldıqda, ən çətin anlarında belə bu iki ölkə arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərir. Bir sözlə, Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün əsl örnəkdir və bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Bütün bunların fonunda Prezident İlham Əliyevin bu gün Türkiyə üçün önəmli bir gündə qardaş ölkədə olması olduqca əlamətdar bir hadisədir. Bir sözlə, bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə bağlı olan, bir-birinə bu qədər yaxın münasibətlərdə olan ölkələrə rast gəlmək mümkün deyil. Tarixin çətin sınaqları ilə üz-üzə qaldıqda, ən çətin anlarında belə bu iki ölkə arasındakı qardaşlıq sözdə deyil, əməldə özünü göstərir. Bir sözlə, Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün əsl örnəkdir.

Bir sözlə, iki güclü ölkənin liderləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin dəmir siyasəti daha da möhkəmlənəcək, tarixi köklərə malik olan bu birlik, həmrəylik, sarsılmaz qardaşlıq münasibətləri bundan sonra da daha da inkişaf edərək dünyaya nümunə olacaq.

**RƏFİQƏ KAMALQIZI**



# Si Cinpin:
## "Hazırda Çin-Azərbaycan münasibətləri sağlam və sabit şəkildə inkişaf edir"

Hazırda Çin-Azərbaycan münasibətləri sağlam və sabit şəkildə inkişaf edir. İki ölkə arasında qarşılıqlı siyasi etimad dərinləşir, "Bir kəmər, bir yol" müştərək layihəsi üzrə əməkdaşlıq fəal inkişaf edir və beynəlxalq aləmdə qarşılıqlı fəaliyyət getdikcə möhkəmlənir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Çin Xalq Respublikasının Sədri Si Cinpinin Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alıb.

Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verdiyini qeyd edən CXR-in Sədri diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin ölkələrimizin və xalqlarımızın rifahı naminə yeni səviyyədə daha da inkişaf etdirilməsi üçün Prezident İlham Əliyev ilə birgə səylər göstərməyə hazır olduğunu bildirib.

## "Ölkəmizdəki siyasi sabitlik uğurlarımızın vacib əsaslarından biridir"

*Prezident Administrasiyasında Azərbaycan Demokrat Partiyasının sədri ilə görüş keçirilib*

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev yeni siyasi konfiqurasiyanın inkişafı çərçivəsində mayın 26-da Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ilə görüşüb.



Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Prezident İlham Əliyevin "Mən yeni siyasi islahatlar proqramını təqdim etmişəm, o, bütün siyasi partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənib... Biz siyasi dialoqun çox aktiv fazasındayıq" fikirlərini xatırlatmaqla görüşə başlayan şöbə müdiri Azərbaycan Demokrat Partiyasının iqtidarla əməkdaşlığını yüksək dəyərləndirib. Yeni siyasi konfiqurasiyanın inkişaf etdirilməsi, iqtidar-müxalifət dialoqunun təşviqi ən yeni islahatlar dalğasının tərkib hissəsi kimi qeyd olunub. Bildirilib ki, ölkəmizdə siyasi partiyalar arasında sağlam münasibətlərin qurulması, partiyaların legitim fəaliyyəti üçün lazımi işlərin görülməsi dövlətimizin başçısı tərəfindən şöbənin qarşısına qoyulmuş önəmli vəzifələrdən biridir. Bu vəzifələrin layiqincə icrası üçün partiyalarla birgə əməkdaşlığa çox böyük önəm verilir. Hər bir partiyanın cəmiyyətin siyasi həyatına özünəməxsus qatqısı var və bu, ölkəmizdə fikir plüralizminin inkişafının qarantıdır. Təbii ki, ölkəmizdəki siyasi sabitlik uğurlarımızın vacib əsaslarından biridir və siyasi sabitliyin qorunması hər bir ölkə vətəndaşının üzərinə düşən məsuliyyətdir. Bu səbəbdən radikal siyasi meyllər dövlətçiliyə təhdiddir. Hər bir siyasi partiya bu təhdidlərə qarşı mübarizə aparmalı və cəmiyyətin ümumi inkişafına öz töhfəsini verməlidir.

Ölkəmizdə aparılan siyasi islahatlar çərçivəsində belə bir görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu yeni siyasi konfiqurasiyanın formalaşdırılması istiqamətində atılan uğurlu addımlarla bağlı fikirlərini bölüşüb. Sərdar Cəlaloğlu qeyd edib ki, ölkədə sağlam siyasi mədəniyyətin formalaşdırılması, dövlətimizin müstəqilliyinin möhkəmlənməsi, ölkənin beynəlxalq nüfuzunun artırılması istiqamətində böyük işlər görülməkdədir. Postmüharibə dövrünün problemlərinin aradan qaldırılması, postpandemiya dövründə ölkə iqtisadiyyatının inkişafı, bütün əhali təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün islahatların daha intensiv xarakter alması olduqca vacibdir. Azərbaycan Demokrat Partiyası dövlətimizin gücləndirilməsi, əhalinin rifahının yaxşılaşdırılması, cəmiyyətin siyasi maarifləndirilməsi üçün imkanlarını səfərbər etməyə hazırdır.

Tərəflər ölkəmizdə partiyalararası əməkdaşlığın yeni formatları, iqtidar-müxalifət dialoqunun fərqli formalarda inkişafı, partiyaların beynəlxalq əlaqələrinin gücləndirilməsi, Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq səviyyəsində olması, Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsi, Qarabağda bərpa-quruculuq işləri və başqa məsələlər haqqında müzakirələr aparıblar.

## "Türkiyədəki həmkarlarımızın Azərbaycana səfərini təşkil etdik"

"Bildiyimiz kimi bu gün ADA Universitetində Medianın İnkişafı Agentliyi ilə Türkiyədən gələn həmkarlarımızla birlikdə "Ənənəvi mediadan yeni mediaya keçid: qlobal trendlər və hədəflər" mövzusunda dəyirmi masa keçirilib". SİA-nın verdiyi məlumata görə, bu sözləri bu gün ADA Universitetində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Ənənəvi mediadan yeni mediaya keçid: qlobal trendlər və hədəflər" mövzusunda keçirilən tədbirdə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd



İsmayılov deyib.

Onun sözlərinə görə, dəyirmi masanın mövzusu Azərbaycanda ənənəvi mediadan yeni mediaya keçidin perspektivlərinin müzakirə olunmasıdır: "Belə bir tədbirin keçirilməsində bizə dəstək olan Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attara minnətdarlığımızı bildiririk. Türkiyədəki həmkarlarımızın Azərbaycana səfərini təşkil etdik. Bu, Azərbaycanda cənab Prezident İlham Əliyevin müvafiq fərmanı ilə başlamış bir sıra islahatların tərkib hissəsi olan medianın inkişafı istiqamətlərini müzakirə etmək üçün çox yaxşı platformadır. Ümumiyyətlə Azərbaycan ilə Türkiyə arasındakı media platforması bizə bu imkanı yaradıb. Biz bu platformadan səmərəli şəkildə istifadə edirik. Bu gün keçirilən tədbir də bu platforma çərçivəsində keçirilən tədbirdir.

Bugünkü tədbirdə nəzər yetirsək Türkiyə mətbuatı ilə yanaşı eyni zamanda Türkiyəyə akkreditasiya olunan xarici media subyektlərinin rəhbərləri də iştirak edir. Düşünürük ki, bu cür müzakirələrin aparılması Azərbaycanda islahatların həyata keçirilməsi üzrə köməklik göstərmiş olacaq".

***Arzu Qurbanlı***

## Patrisiya Lalond: **Brüssel görüşü Ermənistan Azərbaycanı sülhə aparacaq**

**Brüsseldə Avropa İttifaqının sədrliyi ilə keçirilmiş üçtərəfli görüşün nəticələri ilə bağlı atılan ilk addımlar yaxşı xəbərdir. Brüssel görüşü Azərbaycanla Ermənistan arasında sülhə nail olmaq üçün ümidverici prosesdir. İnanıram ki, bu proses uğurlu olacaq və hər iki ölkəni sülhə aparacaq.**

Bu fikirləri Fransanın "Geopragma" beyin mərkəzinin vitse-prezidenti Patrisiya Lalond Brüssel görüşü ilə bağlı AZƏRTAC-a müsahibəsində söyləyib.

Prezident İlham Əliyevin bu istiqamətdə fəaliyyətini, uğurlarını qeyd edən Patrisiya Lalond bildirib ki, son günlər Ermənistandakı nümayişlərə, bir çox çətinliklərin olmasına, hətta istefasının tələb edilməsinə baxmayaraq, Nikol Paşinyanın bu istiqamətdə atdığı addımlar ölkəsini sülhə hazırlaması deməkdir.

Üçtərəfli görüşün səhəri günü hər iki ölkədə delimitasiya və demarkasiya ilə bağlı komissiyaların



yaradılması və onların ilk görüşünün keçirilməsi sevindiricidir. Həmçinin Brüssel görüşündə əldə olunan nəticələrdən biri Azərbaycanın Naxçıvanla quru yollarının bərpasıdır ki, bu da hər iki ölkə üçün əlverişli olacaq. Eyni zamanda, Ermənistanın beynəlxalq bazara çıxışını təmin edəcək. Deyərdim ki, bu nəqliyyat dəhlizinin açılması ən yaxşı nəticədir və iqtisadi inkişaf deməkdir.

Bugünkü qlobal mürəkkəb vəziyyətdə Azərbaycan ilə Ermənistan arasında yaxınlaşma xoş xəbərdir. Zənnimcə, bu gün Azərbaycan ilə Ermənistan arasında bu yaxınlaşma, hətta deyərdim ki, yaxınlaşmadan daha vacib olan hazırkı vəziyyət regionda sabitliyi təmin edəcək", - deyə P. Lalond deyib.



# MEDİA-nın təşkilatçılığı ilə dəyirmi masa keçirilib



**Mayın 26-da ADA Universitetində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Ənənəvi mediadan yeni mediaya keçid: Qlobal trendlər və hədəflər" mövzusunda dəyirmi masa keçirilib. SİA xəbər verir ki, tədbir Türkiyədə akkreditasiya olunmuş xarici media subyektlərinin rəhbərlərinin, türkiyəli jurnalistlərin, Medianın İnkişafı Agentliyinin əməkdaşlarının iştirakı ilə baş tutub.**

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun moderatorluğu ilə keçirilən dəyirmi masada Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar, Türk Dövlətləri Təşkilatının mətbuat katibi Qəhrəman Halisçəlik, "Sabah" qəzetinin jurnalisti Mahmud Övür və "Star" qəzetinin köşə yazarı Ardan Zentürk çıxış ediblər.

Dəyirmi masada Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media sahəsində aparılan islahatlar barədə danışıb. Bildirib ki, çağdaş Azərbaycan oxucusunun keyfiyyətli kontentlə təmin olunması üçün bütün digər media subyektləri kimi qəzetlər də inkişaf etməlidir. Vurğulanıb ki, MEDİA Agentliyi print medianın onlayn formata keçidinin təmin edilməsi məqsədilə Azərbaycanda ilk dəfə olaraq müxtəlif qəzet və dərgilərin elektron versiyasının yerləşdiriləcəyi "E-köşk" platformasının yaradılması prosesini başa çatdırıb. Qeyd olunub ki, "E-köşk" platformasının əsas məqsədi ənənəvi medianın digital mühitə uyğunlaşmasına və informasiya cəmiyyətinin müasir standartlara cavab verməsinə dəstək göstərməkdir. Əhməd İsmayılov bildirib ki, bu il ərzində Agentlik tərəfindən media nümayəndələrinin peşəkarlığının yüksəldilməsi üzrə peşəkar və sahəvi jurnalistika təlimləri, media subyektlərinin texniki heyəti üçün ixtisaslaşma proqramları, eyni zamanda gənc kadrların inkişafı üçün yerli və xarici mütəxəssislərin iştirakı ilə müxtəlif layihələrin təşkil edilməsi nəzərdə tutulub.



Türkiyə Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qalib mediasının önündə yeni vəzifələrin olduğunu bildirib, qalib medianın inkişafını təmin etməyin vacibliyini vurğulayıb.

Həmçinin dəyirmi masada müasir medianın trendlərindən danışılıb. Qeyd edilib ki, yeni media ilə bağlı hədəflərə çata bilmək üçün qlobal trendlərlə bağlı strategiyanın təşkil edilməsi xüsusi əhəmiyyətə malikdir. Tədbir iştirakçıların mövzu ətrafında müzakirələri ilə davam edib.

***Arzu Qurbanlı***

## Selçuk Bayraktar: TEKNOFEST dünyaya açılarkən ilk gəldiyimiz yer təbii ki, qardaşımızın evi, Bakı olacaqdı



TEKNOFEST dünyaya açılarkən ilk gəldiyimiz yer təbii ki, qardaşımızın evi, Bakı olacaqdı. Biz TEKNOFEST-i uşaqlarımızın və gənclərimizin arzularının hüdudu, onların qarşısında heç bir manеə olmasın deyə keçiririk. 2018-ci ildə 18 yarışma ilə başladığımız TEKNOFEST-də yarışma sayı bu gün 40-a çatıb. İnanırıq ki, 10 müsabiqə və "Take Off" Müəssisə Zirvəsi ilə başlayan TEKNOFEST gənc qardaşlarımın Azərbaycana marağı ilə getdikcə daha da böyüyəcək. Bu vəsilə ilə türk uşaqları əzmkarlıqları sayəsində nəyə nail ola biləcəklərini dünyaya göstərəcəklər.

Bu sözləri "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar "TEKNOFEST Azərbaycan" festivalının açılış mərasimində çıxışı zamanı söyləyib. "TEKNOFEST Azərbaycan"ın təşkilində əməyi keçən hər kəsə minnətdarlığını ifadə edən S.Bayraktar deyib: "Bakıdan türk mədəniyyətinin mühüm mərkəzi olan Şuşaya, can Azərbaycanın hər bir guşəsinə salamlarımı göndərirəm".

S.Bayraktar çıxışını TEKNOFEST-in şüarı olan, "Bir uşaq gəlsin bir təyyarəyə toxunsun, bəlkə o, ölkələrimizi kosmosa aparacaq. Bir uşaq daha gəlsin, o da bir təyyarəyə toxunsun, bəlkə o da ölkələrimizi müdafiə edəcək təyyarələr hazırlayacaq" - sözləri ilə tamamlayıb.

## Ermənistandakı siyasi böhran sülhün əldə olunmasına əngəllər yaradır

### *Erməni müxalifəti ilə hakimiyyətin bəzi fikirləri üst-üstə düşür?*

Ermənistanın müdafiə nazirinin sabiq müavini Artak Zakaryan erməni müxalifətinin mitinqində çıxış edərək bildirib ki, Brüssel görüşündə Qarabağdakı Rusiya sülhməramlılarının missiyaları barədə heç nə danışılmayıb. SİA xəbər verir ki, bu barədə armenian-report yazır. Onun iddiasına görə, Azərbaycan və Türkiyə istənilən an sülhməramlıların Qarabağdan çıxarılması tələbini önə sürə bilərlər.



"Azərbaycan və Türkiyə sülhməramlıların çıxarılmasını tələb edəcəklər"

"Bu, belə deməyə əsas verir ki, Azərbaycan və Türkiyə hansısa məqamda Ermənistan rəhbərliyinin susqunluğu qarşısında Rusiyadan sülhməramlıların çıxrılmasını tələb edəcəklər və bunu sülh razılaşmasının əldə edilməsi ilə əlaqələndirəcəklər. Eyni zamanda, Azərbaycan Qarabağ əhalisinin hüquq və təhlükəsizliklərinin təmin olunması öhdəliyinin öz üzərinə olduğunu bildirəcək", deyə Zakaryan bildirib.

Bu arada, Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxış edib və onun çıxışı Brüssel görüşündən sonrakı vəziyyətdə bəzi suallar doğurur. Məsələn, o bildirib ki, Ermənistan hakimiyyəti Qarabağ ermənilərinin hüquqlarını müdafiə etmək üçün ardıcıl işlər aparacaq, eləcə də "statusun" müəyyənləşməsi də hökumətin diqqətində saxlanılmaqdadır, eləcə də sülh danışıqlarına da həmin istiqamətdə gediləcək.

Paşinyanın Brüsseldə bir, İrəvanda isə digər mövqelərdən çıxış etməsi Bakının, həmçinin Brüsselin diqqətindən yayınmır!

Görünür, Paşinyan həqiqətən də dünyanın ən etimad edilməyəcəyi ölkə başçılarından biridir və onun Brüsseldə bir, Ermənistanda isə digər mövqelərdən çıxış etməsi söz yox ki, Bakının, həmçinin Brüsselin diqqətindən yayınmır. Hər halda, belə davam edə bilməz və etməyəcək də. Çünki vaxt gedir və əldə olunan razılaşmalara əməl olunmur. Bəli, sərhədlərin delimitasiyası ilə bağlı birgə komissiyalar öz işlərini başlaya, hətta davamlı görüşlər də keçirilə bilər, amma bütövlükdə Ermənistanın hər zaman olduğu kimi, bu dəfə də öz vədlərinə xilaf çıxacağını artıq bəri başdan ehtimal etmək olar!

Həmçinin, artıq belə bir nəticə də hasil etmək olar ki, Ermənistanda davam edən siyasi böhran bütövlükdə sülhün əldə olunmasına ciddi əngəllər törədir və bu amil təhlükə mənbəyi kimi qalmaqdadır. Hətta zaman-zaman erməni müxalifəti ilə hakimiyyətinin bəzi hallarda, xüsusilə "status" məsələsində fikirlərinin üst-üstə düşməsini də buna misal kimi göstərmək olar.

***Rövşən RƏSULOV***

## "Azərbaycan hər zaman Afrika dövlətləri ilə əlaqələri inkişaf etdirib"

**"Bu gün Afrika ittifaqının yaradılması günü kimi qeyd olunur. Həmçinin Azərbaycan "Qoşulmama Hərəkatı" çərçivəsində Afrika günü ilə bağlı böyük bir tədbirə ev sahibliyi edir". SİA xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov bildirib.**

Onun sözlərinə görə, burada əsas məqam ondan ibarətdir ki, Afrika ittifaqının yaradılması "Qoşulmama Hərəkatı"nın yarandığı günə təsadüf edir: ""Qoşulmama Hərəkatının" yaradılmasından artıq 60 il ötür. Bütün bu illər ərzində Afrika ölkələri hərəkatın tarixində çox böyük rol oynayıblar. Məhz bu səbəbdən də hərəkat Afrika dövlətlərinin inkişafında çox böyük töhfələr verib. Afrika dövlətlərindən biri istisna olmaqla hər biri "Qoşulmama Hərəkatının" üzvləridir. Azərbaycan dövləti hər zaman Afrika dövlətləri ilə əlaqələri inkişaf etdirib. Artıq 2019-cu ildən etibarən Azərbaycan sədrlik çərçivəsində də bu münasibətlərin daha da inkişaf etdirilməsini prioritet məsələ hesab edib. Bu mənada Azərbaycan Respublikasının "Qoşulmama Hərəkatına" sədrliyi başlanandan kifayət qədər qısa bir müddət ərzində bütün dünyanı Covid-19 pandemiyası cərəyan etdiyi zamanlarda həm milli, həm də "Qoşulmama Hərəkatının" sədri kimi bir sıra pandemiyaya qarşı tədbirlər həyata keçirib. Bütünlükdə isə 80-dan çox ölkəyə Azərbaycan pandemiya dövründə dəstək göstərib. Həmçinin UNESCO ilə birgə təşəbbüs göstərərək Afrikada qızların təhsili ilə bağlı dövlət dəstəyi göstərmişdir. Hərəkatın tarixində ilk dəfə olaraq 2021-ci il də "Qoşulmama Hərəkatı"-na üzv dövlətlərinin gənclər şəbəsinin yaradılması idi. Afrika ölkələri ən gənc insanlara malik olan bir kontengentə sahibdir".



***Banuçiçək Hüseynli***

# Böyük
## Qayıdış-sürətli abadlıq və quruculuq işləri

***Müstəqillik tariximizdə Azərbaycanda bütün sahələrdə əldə edilən inkişaf təhsil sahəsindən də kənar ötməmişdir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən təhsilə böyük önəm verilməsi, yeni proqram və layihələrin, təhsil islahatlarının həyata keçirilməsi Azərbaycan təhsilinin dünya standartları səviyyəsində qurulmasına gətirib çıxarıb. Həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə yenilənib. Ölkədə təhsilin müasir tələblərə cavab verən normativ-hüquqi bazası yaradılıb. Təhsil müəssisələri yenidən qurulub, yeni korpuslar istifadəyə verilib. Bunu Azərbaycanın hər bir bölgəsində görmək mümkündür.***

30 ilə qədər işğal altında olan Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin xüsusi diqqəti sayəsində abadlıq-quruculuq işləri aparılır. Yeni məktəblərin salınması da görülən işlər sırasındadır. Bildiyimiz kimi, Cocuq Mərcanlı işğaldan azad olunduqdan sonra burada aparılan abadlıq-quruculuq işləri nəticəsində tezliklə bu ərazi müasir məkanlar sırasına daxil olundu. Xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və iradəsi sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun qeyd etdiyimiz qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdi. Bu kənd 2016-cı ildə ikinci həyatını yaşamağa başladı.

### AZƏRBAYCANIN KONSTRUKTİV MÖVQEYİ, HAQQ-ƏDALƏTİN BƏRPASI

Məlum aprel döyüşləri - Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi hadisəyə çevrildi. Bu, Azərbaycanın konstruktiv mövqeyi idi, haqq-ədalətin bərpası idi. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, insanların öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Bu məsələdə dövlətimizin başçısının 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Kənddə böyük quruculuq işlərinə başlandı. Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı görülən işlər çərçivəsində fərdi yaşayış evləri, infrastrukturun tikintisi ilə yanaşı, 96 şagird yerlik yeni məktəb binası da tikilib istifadəyə verildi. Müasir standarlara cavab verən məktəbdə ölkəmizin bir çox yerlərində olduğu kimi, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinələri, müəllimlər otağından ibarət məktəb binası lazımi inventar








və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilib. Qeyd edək ki, məktəbin həyətində qazanxana, voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıqlar da salınıb.

Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha təsdiqləyirdi ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunması uğrunda mübarizədən çəkinməyəcəkdir. Belə də oldu. Bu gün Cocuq Mərcanlıda tikilən məktəb, inşa olunan məscid kimi işğaldan azad olunan digər ərazilərimizdə də tikilir, yenidən qurulur. Görülən işlər, davamlı səylər nəticəsində bərpa işləri uğurla davam edir. Yeni tipli məktəblər salınır. İşğaldan azad olunan ərazilərdə həyat yenidən qurulur.

Təhsil müəssisələrinin inşası ilə bağlı tədbirlər də davamlı olaraq həyata keçirilir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Şuşada inşa olunan 1 nömrəli məktəbin tikintisi davam edir. Məktəbin tikintisi cari ilin dekabr ayında yekunlaşacaq. Eləcə də Ağdam şəhərlərində məktəb tikintisi davam etdirilir. Hər iki şəhərdə ümumilikdə 960 şagird yerlik təhsil müəssisələri inşa olunur. Zəngilan rayonunun Ağalı kəndində isə həyata keçirilən "Ağalı kənd" layihəsi çərçivəsində 288 şagird yerlik tam orta məktəb inşa olunur. Dövlət başçısı "Şuşa şəhərində Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu gün ümumtəhsil orta məktəblərlə yanaşı, müasir çağırışlara cavab olaraq peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. "Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, Füzuli Peşə Liseyinin binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılıb.

Vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər çərçivəsində Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlini qoyublar. Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Lisey ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına yönəlib.





Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Məhz bu inkişaf, güclü iradə, müdrik siyasətin nəticəsidir ki, işğaldan azad olunan ərazilərimizdə kompleks işlərin həyata keçirilməsi start götürüb.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan və Türkiyənin gələcəyə birgə addımlamaq mesajı!

## Bakıda "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı keçirilir



***Dünən Bakıda ”TEKNOFEST Azərbaycan” festivalı start götürüb. ”TEKNOFEST” Aerokosmik və Texnologiya Festivalı Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və Selçuk Bayraktarın rəhbərlik etdiyi ”Türkiye Teknoloji Takımı” - T3 Vəqfinin təşkilatçılığı ilə 2018-ci ildən başlayaraq hər il keçirilir. Türkiyədən kənarda ilk ”TEKNOFEST” Azərbaycanda, Bakı Kristal Zalı və ətrafındakı Dənizkənarı Bulvar ərazisində təşkil olunub.***

”TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya Festivalının təşkilatçıları Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və ”Türkiye Teknoloji Takımı” - T3 Vəqfidir.

Açılış mərasimində Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, ”TEKNOFEST”in İdarə Heyətinin və T3 Fondu Qəyyumlar Şurasının sədri Selçuk Bayraktar və Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank çıxış ediblər. Nazir Rəşad Nəbiyev Türkiyə nümayəndə heyətini və bütün iştirakçıları salamlayaraq bildirib ki, ”TEKNOFEST” Türkiyədən kənarda ilk dəfə məhz Azərbaycanda keçirilir.









### ”Bu festival Azərbaycan və Türkiyənin gələcəyə birgə addımlamaq mesajıdır”

”Bu festival ölkələrimiz arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür. Bu, eyni zamanda, Azərbaycan və Türkiyənin gələcəyə birgə addımlamaq mesajıdır. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamla təsdiq etdiyi ”Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” strateji sənədində müasir innovasiyalar məkanının qurulması məsələsi əksini tapıb. ”TEKNOFEST” festivalının Azərbaycanda keçirilməsi innovasiya üfüqlərini daha da genişləndirir. Gənclərə özlərini sınamaq, xəyallarını gerçəkləşdirmək üçün yeni platforma, meydan təqdim edir”, - deyə nazir vurğulayıb. ”TEKNOFEST”in İdarə Heyətinin və T3 Fondu Qəyyumlar Şurasının sədri, eyni zamanda, ”Bayraktar TB2” pilotsuz uçuş aparatlarının yaradıcısı Selçuk Bayraktar qardaş Azərbaycanda olmaqdan qürur duyduğunu deyib.



### ”TEKNOFEST” dünyaya açılarkən ilk gəldiyimiz yer təbii ki, qardaşımızın evi, Bakı olacaqdı”

”Bir millət, iki dövlət olaraq qardaşlığımız dəfələrlə sınandı və şükürlər olsun hər dəfəsində könül bağımız daha da qüvvətləndi. Azərbaycanda gözəl bir atalar sözü var: ”Dost dar gündə tanınar”. Biz hər zaman dar gündə də, şad gündə də bir yerdə olduq. Bakını İstanbuldan fərqləndirməyən Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu da, Qarabağa xidmət edən yüksək texnoloji milli pilotsuz uçuş aparatlarını hazırlayan türk mühəndisləri də eyni ruha sahibdirlər. Bizim ürəyimizdə bir yara olan Qarabağ, eyni zamanda, qardaşlığımızın zirvəsidir. Bu səbəblə Qarabağı yenidən vətən torpağı edən Zəfərin əsl memarı olan əziz şəhidlərimizi bir daha qarşınızda anıram. Ruhları şad olsun”, - deyə Selçuk Bayraktar qeyd edib.

”Bayraktar TB2” pilotsuz uçuş aparatlarının yaradıcısı gənclərə müraciət edərək deyib ki, bu gün ölkələr müstəqilliklərini qorumaq üçün yüksək texnologiyalara sahib olmalıdırlar. Gənclər bu istiqamətdə özlərini təsdiqləməli, bilik və bacarıqlarını daim artırmalıdırlar: ”Bacaracağına inanmayan insan necə mübarizə apara bilər, məqsədinə necə çata bilər? Buna görə bütün məsələnin kökü özünə inamdan başlayır. İnanaraq başladığınız işlərdə ailənizə, ailənizdən vacib millətinizə, millətinizdən vacib insanlığa faydalı olmağı qarşınıza məqsəd qoyun. Əminəm ki, əgər bu nüanslara dəyər verərək çalışsanız, etdiyiniz bütün işlərdə dünyanın ən yaxşısı ola bilərsiniz”.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank çıxışında ”TEKNOFEST” iştirakçılarını gələcəyin mütəxəssisləri adlandırıb.

### ”Biz Bakıda təkcə festival keçirmirik, eyni zamanda, bütün dünyaya bir millət, iki dövlət olduğumuzu göstəririk”

Nazir müdafiə sənayesi sahəsində Azərbaycan ilə Türkiyənin birgə əməkdaşlığının faydalarına toxunub. Qeyd edib ki, Türkiyə hazırda müdafiə sənayesi sahəsində öz sözünü deyir. Bu sahədə Azərbaycana daim dəstək göstərməyə hazırdır. ”Azərbaycanda olmaqdan məmnunuq. ”TEKNOFEST”in ilk məşəlini əvvəlcə İstanbulda, sonra Anadoluda yandırdıq. Ötən il Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ”TEKNOFEST”i beynəlxalq bir brendə çevirəcəyik” dediyi zaman, təbii ki, ilk dayanacaq məntəqəmiz Azərbaycan oldu. Hər il TEKNOFEST məkanında yaşadığım o həyəcanı, coşqunu, sevinci bu gün daha fərqli yaşayıram. Hazırda təkcə Türkiyə adından yox, qardaş Azərbaycan adından da sevinirəm. Türk dünyası üçün, İslam dünyası üçün sevinirəm”, - deyə M.Varank bildirib.

Selçuk Bayraktarın geri sayımı ilə ”TEKNOFEST Azərbaycan” festivalı öz işinə başlayıb. Tədbir iştirakçıları VIP tura dəvət olunublar. Tur zamanı qonaqlar sərgilərlə tanış olub, moderator onlara ”TEKNOFEST” barədə ümumi məlumat verib.

### Festival çərçivəsində 8 texnoloji müsabiqə, 3 beynəlxalq tədbir keçirilir

”TEKNOFEST” çərçivəsində keçirilən yarışlarda pilotsuz uçuş aparatları, robotexnika, peyk modelləşdirilməsi və digər sahələr üzrə gənclərə öz bacarıqlarını göstərmək imkanı verir. Festivalda iştirak üçün ümumilikdə 1000 komanda, 5000-dək şəxs müraciət edib. Azərbaycanın 52 rayonundan, Türkiyənin isə 40 bölgəsindən gənclər festivalda iştirak üçün qeydiyyatdan keçiblər. Festival elmi, texnologiyanı sevən gənclərə özünü sınamaq, ideyalarını reallaşdırmaq imkanı verəcək, təcrübə qazandıracaq. Eyni zamanda, birlikdə çalışan gənclərə komanda ruhu aşılayacaq. Sağlam mühitdə rəqabət aparmağı, əzmkar olmağı öyrədəcək.

Qardaş Türkiyənin Hərbi Hava Qüvvələrinin ”ATAK”, ”AKINCI-SLTRK”, ”HÜRKUŞ” təyyarələri, eləcə də ”Solo Türk” və ”Türk Ulduzları”nın nümunəvi uçuşları tamaşaçıları heyran qoyub. ”Türk Aviasiya və Kosmik Sənaye” şirkətinin istehsalı olan ”HÜRKUŞ” təyyarəsində ön pilot Murad Özbala olub. Digər pilot isə Azərbaycan Hərbi Hava Qüvvələrindən ehtiyata buraxıldıqdan sonra ”HÜRKUŞ” aerobatika komandasında xidmət edən ilk azərbaycanlı test-pilot, ehtiyatda olan polkovnik Xəlil Yusubovdur.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 və MİQ-29 qırıcı təyyarələri, hərbi helikopterlər və qardaş Türkiyənin ”Solo Türk”, ”Türk Ulduzları”, ”HÜRKUŞ” aerobatika komandaları, ”ATAK” helikopterləri və ”Akıncı” PUA-sı ilə nəfəs kəsən hava şousu təqdim ediblər. Milli şahinlərimiz də qardaş Türkiyənin pilotları ilə yanaşı, mürəkkəb manevrlərin öhdəsindən layiqincə, cəsarətlə, qətiyyətlə gəlib və bu dəfə də tamaşaçıları valeh ediblər.





# Cümhuriyyətimiz - İstiqlaliyyətimizin sübhü!

*Müstəqilliyi qorumaq onu qazanmaqdan daha çətindir*

**Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə 28 may 1918-ci ildə bütün türk-müsəlman dünyasının ilk müstəqil demokratik respublikası yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin çoxəsrlik ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi idi. Azərbaycan xalqının müstəqillik əzmini nümayiş etdirən Azərbaycan Xalq Cümhuriyyəti öz varlığı ilə XX əsr dünya siyasi arenasına səs saldı. Ümummilli liderimiz Heydər Əliyev cümhuriyyət tarixini "İstiqlaliyyətimizin sübhü" adlandırırdı. Artıq bizləri o sübhdən 104 illik bir zaman fasiləsi ayırır. Ötən illərdə o istiqlalın canımıza, qanımıza hopan şirinliyi bizi mübarizəyə səsləyib, xalqımıza yenidən müstəqillik bəxş edib.**

"... Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq", - deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 oktyabr 2021-ci ildə imzaladığı "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə mayın 28-i Müstəqillik Günü, 1991-ci ildə ikinci dəfə müstəqilliyimizi qazandığımız gün-oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi. Qanunda deyilir: "2021-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsinin 30 ili tamam olur. Azərbaycan xalqı 1991-ci ildən sonra ilk dəfə bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir. Bu baxımdan dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyəti və məzmununa uyğun daha dəqiq ifadə olunması böyük önəm kəsb edir".

Beləliklə 1918-ci ildə əldə etdiyimiz müstəqilliyimiz istiqlaliyyətimizin sübhü olaraq ondan sonrakı illərə sübh çağında doğan günəş kimi işıq saçdı. Bu xalqın bir əsrlik salnaməsinin başlanğıcı oldu."

## İstiqlal Bəyannaməsi bir millətin çoxəsrlik müstəqillik mübarizəsinin təsdiqi idi

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən tarixi iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Bu tarixi sənəd türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılmasından xəbər verirdi. Həmçinin bu Bəyannamə tək bir müstəqil respublikanın yaradılması haqqında sənəd deyil, həmçinin tarixi yüzilliklərə söykənən, bu yüzilliklər ərzində dünyada dövlət quruculuğu tarixinə 40-dan çox dövlət verən bir xalqın mübarizliyinin, azadlıq duyğularının, qədim mədəniyyətinin, humanistliyinin, multikulturallığının təcəssümü idi. Bu Bəyannaməni qəbul edən dövlət özündən əvvəlkilərdən zaman, məkan, şərait, milli və müstəqillik, həm də demokratik baxımdan fərqlənən Azərbaycan Xalq Cümhuriyyəti idi. Bu dövlət mahiyyət etibarilə milli, demokratik bir dövlət olmaqla Şərq aləmində ilk avropatipli, sivil qanunlarla idarə olunan bir dövlət idi. Siyasi quruluşu dövrün tələblərinə cavab verdiyindən təqib və təzyiqlərə baxmayaraq, o, tezliklə aparıcı dünya dövlətləri tərəfindən tanınmışdı.

## Müstəqilliyimizin məhvinə uzanan əllər olmasaydı...

Tarixdə həmişə mübariz və qəhrəman xalqlar yaşayırlar. Həmin xalqlar isə tarix yaradır və onun səhifələrinə şərəf salnaməsi yazırlar. Belə qəhrəman xalqlardan biri də Azərbaycan xalqıdır. Azərbaycan Xalq Cümhuriyyəti bu xalqın yaratdığı tarix, onun 23 aylıq gərgin, çətin bir şəraitində fəaliyyəti isə həmin tarixin şərəf səhifələridir. O dövrün çətinlikləri - kənardan uzanan əllər, müdaxilələr, təxribatlar, təzyiqlər olmasaydı, bu il təkcə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından deyil, 1918-ci ildə qazandığımız müstəqilliyimizdən də 104 il ötəcəkdi.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı yaranan çətinlikləri təhlil edən ümummilli lider Heydər Əliyev deyirdi: "Azərbaycanın ətrafında və daxilində gedən proseslər bu respublikanın, hökumətin öz normal fəaliyyətini davam etdirməsinə imkan verməmişdir. Rusiyadakı bolşevik hökuməti keçmiş çar Rusiyasının bütün ərazisində bolşevik üsul-idarəsini qurmağa cəhd göstərərək, Azərbaycanda istilaçılıq hərəkətlərinə başlamışdı. Respublikanın daxilində o cəhdləri dəstəkləyən qüvvələr azərbaycanlı olmamışlar. Eyni zamanda, Cümhuriyyətin hökumətində və onun yaratdığı parlamentdə də daxili ziddiyyətlər, çəkişmələr onun süqut etməsinə gətirib çıxarmışdır".

Tarixçi alimlər qeyd edirlər ki, XX əsrin əvvəllərində, dəqiq desək, cümhuriyyətin qurulmasından başlayaraq onun süqutunadək erməni silahlı birləşmələri Qarabağda, Naxçıvanda, Zəngəzurda dayanmadan Azərbaycan kəndlərini təhdid edirdilər. Qarabağda hər an üsyanlar qaldırırdılar. Yeri gəlmişkən qeyd edək ki, 1919-cu ilin fevral ayında Qarabağ General-Qubernatorluğu da yaradılmışdı və Xosrov Paşa bəy Sultanov Qarabağ general-qubernatoru təyin olunmuşdu. O, Qarabağda ermənilərin avantürist planlarının qarşısının alınmasında çox mühüm işlər gördü. Lakin erməni və rus təxribatçılarının nəyin bahasına olursa-olsun, cümhuriyyətin məhv edilməsi haqqındakı planları qarşısında bu müstəqillik davam edə bilmədi və cəmi 23 ay yaşayan türk-müsəlman dünyasının ilk demokratik respublikası düşmən qüvvələrin təsiri ilə 1920-ci ilin 27 aprelində iflasa uğradı. Xalq yenidən 70 il müstəmləkə rejimində yaşamaq məcburiyyətində qaldı. 70 ili də beləcə ötən XX əsr, ümumilikdə, tariximizin ən keşməkeşli səhifələrini təşkil edən bir yüzillik kimi tarixə yazıldı.

1991-ci ildə isə müstəqilliyimiz bərpa olunan respublikamızda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dalğalanmağa başladı.

### 1991-ci ildə yenidən əldə etdiyimiz müstəqilliyimiz ümummilli lider Heydər Əliyevin sayəsində əbədilik qazandı

Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə müstəqil dövlətimizin təməli möhkəmləndirildi, müstəqilliyimiz əbədilik qazandı. Ulu öndərin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib, milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. Ümummilli liderimiz tərəfindən milli dövlət strukturlarının yaradılması gündəmə gətirildi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə muxtar respublikanın Dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında bu bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq bayrağın Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Azərbaycanın yeni Dövlət gerbinin hazırlanması və təsdiqi məsələsinə də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasın Ali Məclisində baxıldı. Üçrəngli milli bayrağın bərpası və qəbulu ilə yanaşı, Dövlət gerbi və Dövlət himninin qəbul edilməsi üçün müsabiqə elan olunması qərara alındı. Bu məsələləri kompleks halda həll etmək üçün Azərbaycan Respublikasının Ali Sovetinə müraciət olundu.

Dahi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet sosialist" sözlərinin çıxarılması və digər tarixi qərarlar da müstəqillik yolunda irəliləyən Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutur.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!" fikri indi dünya dövlətləri arasında günbəgün mövqeyini gücləndirən müstəqil Azərbaycanın simasında da bir daha öz təsdiqini tapır.

Bu gün də müstəqil Azərbaycanımız etibarlı əllərdədir. Azərbaycan xalqı çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır.

### Həqiqətən də, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən dəfələrlə çətin imiş

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdiklərimiz canlandıqca düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonra yaranan vəziyyətlə tanış olduqda, ona uzanan əlləri, gözügötürməyənlərin təxribatlarını görəndə isə belə bir qənaətə gəlmək olur ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.

Hər birimizə məlumdur, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, ümummilli liderimiz Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyətimizin taleyinə bənzəyəcəkdi. Məhz ulu öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi.

Artıq müstəqilliyimizin bərpasından 30 il ötür. Ötən bu dövrdə ölkəmizdə 100 ilə bərabər işlər görülüb. 2020-ci ildə əldə etdiyimiz Qarabağ Zəfəri isə bu işlərin nəticəsi oldu. Bəli, biz Qələbə qazandıq. 1990-cı illərin I Vətən Müharibəsi nə zamansa II Vətən Müharibəsinin olacağına şübhə yeri qoymamışdı. Xalq bir gün öz əzəli torpaqlarını geri alacaqdı. Həmin günün ulu öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin bərpasının ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirildiyini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə-Qarabağına, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi.

10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixində yazdığı yeni salnamə ilə tarixə düşdü. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi. Böyük Zəfər ərazi bütövlüyümüzün bərpasını reallaşdırdı. Deməli, müstəqilliyi qorumaq, həqiqətən də onu qazanmaqdan qat-qat çətin imiş.

Müstəqilliyimizin yaşı artdıqca ölkəmizin inkişafı daha da sürətlənəcək. Və o gün olacaq ki, müstəqilliyimizin 50, 100 illik yubileylərini qeyd edəcəyik. Həmin dövrlədə insanlar qürurla müstəqilliyimizdən, 30 ildən sonra ərazi bütövlüyümüzü bərpa etməyimizdən, bu xalqın böyük şəxsiyyətlərindən bəhs edəcəklər. İstiqlaliyyətimizin sübhü olan müstəqillik tariximizin başlanğıcı-28 May hələ neçə-neçə əsrlərə öz işığını salacaq, ölkəmizi inkişafdan, insanların rufahından doğan nura boyayacaqdır.

***Mətanət MƏMMƏDOVA***

---

# Rusiya telekanalından Azərbaycanın ərazi bütövlüyünə qarşı daha bir hörmətsizlik!

## *Moskva "Pervıy kanal" rəhbərliyinin və bütövlükdə Rusiya telekanallarının təxribatçı əməllərinə nə qədər göz yumacaq?*

Rusiyanın aparıcı TV kanallarında istər əvvəllər, istərsə də hazırda Azərbaycanın maraqlarına qarşı, eləcə də yalan, əsassız, hətta qəsdən qıcıq yaradacaq müxtəlif verlişlərin efirə getməsi sirr deyil. Hətta ikinci Qarabağ müharibəsi dövründə "Rossiya", NTV, "Perviy kanal", "Zvezda" kimi telekanallarda açıq-aşkar ölkəmizin ədalətli mübarizəsinə qarşı aşkar düşmənçilik mövqeləri sərgilənir, üstəlik həmin verilişlərə qonaq qismində dəvət edilənlərin də əksəriyyəti ya Rusiyada yaşayan erməni politoloqları, ya da açıq ermənipərəstlik mövqeyindən çıxış edən rus ekspertləri olublar. Düzdür, etiraf edək ki, Azərbaycanın da maraqlarını dəstəkləyən politoloqlar və hərbi ekspertlər mövcuddur, amma onlar azlıq olaraq çoxluğa qarşı demək olar ki, çox çətinliklə çıxış edirdilər. Bütün bunlar öz yerində...








Ancaq fakt budur ki, Rusiya TV-lərində hazırda da ələ düşən hər imkanda anti-Azərbaycan xarakterli mesajlar verilir və bu faktlar iki ölkə arasındakı münasibətlərin normallaşmasına kifayət qədər mənfi təsirlərini göstərməkdədir. Açığını desək, bu gün rus telekanallarında istilaçılıq, işğalçılıq və nə qədər də qəribə görünsə imperiya kontekstləri özünü daha qabarıq fonda nümayiş etdirməkdədir. Ən maraqlısı isə budur ki, sözügedən xarakterli verlişlər efirə getdikdən sonra Rusiyanın rəhbərliyi, yaxud müvafiq strukturları tərəfindən ümumiyyətlə etinalar göstərilmir, belə verlişlərin Rusiya-Azərbaycan münasibətlərinə zərbə vurması barədə ümumiyyətlə tənbehlər olunmur. Belə olnda isə istər-istəməz düşüncələrdə əsaslı suallar yaranır: məqsəd nədir?

Bu günlərdə Rusiyanın "Pervıy kanal" adlandırılan Birinci kanalı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı növbəti təxribatçı addımına yol verib. Efirə verilən süjetlərin birində separatçı Cənubi Osetiyada (Gürcüstanın Sxinvali regionu-R.R.) "prezident" seçilmiş Alan Qaqloyev adlı separatçının "inauqurasiyası" mərasimi" əks olunub və söhbət heç də soyuq olan və düşmənçilik həddində qalmağa davam edən Gürcüstan-Rusiya münasibətlərində də deyil, belə ki, iki ölkə öz problemlərini elə öz aralarında nə zamansa həll edə bilərlər, amma..!

Amması da budur ki, reportajda "inauqurasiya" mərasiminə Rusiya nümayəndə heyəti ilə yanaşı qonaq qismində (DİQQƏT!) "Abxaziya, "LDNR", "Dnestryanı" və "Dağlıq Qarabağ"dan olan heyətlərin də qatıldıqları özəlliklə vurğulanıb (???!!!-R.R.)

Sual isə belədir - əgər Azərbaycan Rusiya ilə 2022-ci ilin fevralın 22-də müttəfiqlik Bəyannaməsini imzalayıbsa, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, suverenliyini dəstəkləyirsə, eləcə də Bəyannamədə əks edilən digər bəndləri də qəbul edirsə onda bu hoqqaya hansı adı vermək olar?!

Və ya təxribatçı efirdən sonra nəyə görə Kremldən "Pervıy kanal"ın baş direktoru Konstantin Lavoviç Ernstə, eləcə də oradakı komandasına ən yumşaq halda barmaq silkələnmədi? Məhz buradan da məntiqi nəticə çıxarmaq olar ki, elə sifarişin özü də bilavasitə Kremlin divarları arasından verilib və açığını desək, bu heç də kiçik, görünməyən təxribat deyil və söz yox ki, erməni maraqlarına bağlı qalan həmin dairələr bütün hallarda cavab verməli olacaqlar!

Məgər Rusiyadakı dairələr bilmirlər ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur və həmin yerlər Azərbaycanın Qarabağ regionu adlandırılır? Əlbəttə ki, yaxşı bilirlər, sadəcə baş verənlər BİRBAŞA (!!!) ərazi bütövlüyümüzə qarşı hörmətsizlikdir!

Məsələyə digər dəqiq yanaşma edək. Birinci kanal dövlət kanalıdır və Rusiyanın dövlət büdcəsindən maliyyələşir. Belə olan halda məhz həmin təxribatçı əməlin kontekstində xatırlatmaq lazımdır - 22 fevral 2022-ci ildə Azərbaycanla Rusiya arasında imzalanmış müttəfiqlik Bəyannaməsinin 11-ci bəndində açıq-aydın yazılıb: "Rusiya Federasiyası və Azərbaycan Respublikası öz ərazilərində təşkilatların və şəxslərin digər Tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını qətiyyətli surətdə alırlar".

Nə deyək, əgər Moskva üzərinə götürdüyü öhdəliyinə məsul yanaşırsa Birinci kanalın rəhbərliyinə qaşı çox ciddi ölçülər götürülməlidir. Təbii ki, söhbət yalnız bununla da başa çatmır. Son vaxtlar qonşu ölkədə bənzər əməllər təssüf ki, artır və bizdən Kremlin əsas şəxsinin, yaxud rəsmi Moskvanın necə münasibət göstərəcəyini gözləmək qalır.

Əgər Birinci kanalın rəhbərliyi sözügedən əməlinə görə rəsmi qaydada Azərbaycan tərəfindən üzr istəyərsə bunu anlamaq və xoş qarşılamaq olar, yox, əgər bu baş verməzsə - demək ki, artıq bizim də susmağımız doğru olmazdı, əks halda belə "kiçik" görünən təxribatlar get-gedə daha da artacaq. Bu baxımdan da, bəri başdan müəyyən nəticələri çıxarmaq vacibiyyata çevrilir!

***Rövşən RƏSULOV***

# Gənclərin asudə vaxtı üçün şərait varmı?



***Bütün fərdlər boş vaxtlarını dəyərləndirmək baxımından bərabər deyil. Təəssüf ki, bəzi şəxslərin bununla bağlı heç bir proqramı yoxdur. Ona görə də həyatlarının yarısından çoxunu boş işlərlə məşğul edirlər. Bəziləri boş vaxtlarını televizora baxmağa, radioya qulaq asmağa və buna bənzər işlərə sərf edirlər. Onlar əsasən proqramsız olurlar. Təbii ki, vaxtımızın bir hissəsini proqramlaşdırılmış şəkildə televiziyaya baxmaq kimi fəaliyyətlərə sərf etsək, bunun heç bir zərəri yoxdur. Proqramsızlıqdan, darıxmaqdan televiziya, radio və peyk kanallarını qarışdırmaqla məşğul olmamalıyıq. Belə bir vəziyyət insanları bir çox əxlaqi və sosial pozğunluqlara sürükləyə bilər.***

İslamın bizdən tələb etdiyi odur ki, biz asudə vaxta səmərəli yanaşaq. Düzgün idarəetmə və hərtərəfli proqramlaşdırma ilə boş vaxtımızdan maksimum yararlanmaqdır. İş saatlarımızda ehtiyac duyacağımız fiziki və mənəvi enerjini boş vaxtlarımızdan almalıyıq.

Əylənmək boş vaxtlarda görüləcək ən vacib işlərdən biridir. Hər kəsə dincəlmək və əylənmək üçün



vaxt lazımdır. Təbii ki, cəmiyyətdə fərqli yaş və təbəqələrdən olan insanların əylənmək üçün müxtəlif yolları var. Əylənmək yeni güclər qazanmaq və həyatdakı monotonluğu aradan qaldırmaq üçün zəruri bir işdir və fiziki-ruhi sağlamlığın ən mühüm təməllərindən biridir.

Səyahət və görməli yerləri gəzmək boş vaxt keçirməyin ən gözəl və faydalı yollarından biridir. İslam dini də bunu şiddətlə tövsiyə edir.

Boş vaxt keçirməyin ən gözəl və dəyərli yollarından biri qohumları ziyarət etmək, dostlarla görüşməkdir.

Boş vaxtlarımızda rahat bir düşüncə ilə edə biləcəyimiz ən yaxşı şeylərdən biri gündəlik və ya keçmiş işlərimizlə məşğul olmaqdır. Bəzən insan gündəlik işlərə, ev işlərinə o qədər qarışır ki, həyatının əsas məqsədini unudur. Əslində günlər keçsə də, hər bir insanın həyatında olması lazım olan ən elementar suallar qarşısında öz analizini etmək bir yana qalsın, bu sualları bir dəfə də olsun ağlına belə gətirmir.

### Bəs, gənclər asudə vaxtlarını necə dəyərləndirməlidir?

Günümüzdə gənclərin asudə vaxtlarını dəyərləndirməsi üçün hər cür şərait olsa da, onlar passiv həyat tərzi sürərək, gününün çox hissəsini telefonda və boş-boş işlərlə məşğul edirlər. Yəni gənclər asudə vaxtlarını necə dəyərləndirməlidir ki, bu onlar üçün faydalı olsun.

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** "Asudə vaxtını səmərəli keçirmək hər birimiz üçün vacibdir, gənclər üçün isə xüsusi



önəm kəsb edir. Onlar üçün asudə vaxt özünü inkişaf etdirmək, maraqlarını kəşf edə bilmək və əylənmək üçün bir fürsətdir.

Bu gün cəmiyyətimizdə təhsil ocaqlarında, gənclər təşkilatlarında, debat və idman klublarında yarışlara qatılan, seminar, təlim və konfranslarda iştirak edərək boş vaxtlarını səmərəli keçirən gənclərlə yanaşı, vaxtını boş yerə öldürən, saatlarla telefondan, sosial şəbəkələr-



dən asılı qalan gənclərimiz də az deyil.

Bildiyiniz kimi ölkəmizdə gənclərin asudə vaxtlarının səmərəli təşkili dövləti ciddi düşündürən məsələdir. Bunun üçün komitə və qurumlar fəaliyyət göstərir. Düşünürəm ki, həmin komitə və qurumlar gəncliyimizin həm sağlam böyüməsi, həm də mənəvi inkişafı üçün səylərini artırmalıdırlar".

**Təhsil eksperti Kamran Əsədov:** "Son illər ölkəmizdə gənclərin asudə vaxtının səmərəli təşkili ilə bağlı layihələrə xüsusi önəm verilir.



Sözügedən dəstəyin mühüm istiqamətlərindən biri də gənclərə dövlət qayğısının gücləndirilməsindən, onlara hərtərəfli diqqətin göstərilməsindən ibarətdir. Respublikamızda bu istiqamətdə həyata keçirilən layihələr gənclərin hərtərəfli inkişafına xidmət edərək onların sosial təminatlarının yaxşılaşdırılmasını sürətləndirir, nəticədə ictimai həyatda fəallıqlarının artmasına kömək edir. Azərbaycan Prezidenti İlham Əliyev gənclərin işıqlı gələcəyinə diqqət çəkərək demişdir: "Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər".

Ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Azərbaycan gəncliyi ictimai həyatın bütün sektorlarında aktiv fəaliyyəti ilə seçilir. Göstərilən bu cür dəstəklə yanaşı, gənclərin asudə vaxtının səmərəli təşkil olunması dövləti ciddi düşündürən məsələdir. Gənclərlə bağlı yürüdülən dövlət proqramları çərçivəsində bölgələrdə inşa edilən olimpiya idman kompleksləri məhz onların asudə vaxtlarında idmanla məşğul olması üçündür. Bu gün İdman Akademiyasında təhsil alan tələbələrin əksəriyyəti bölgələrimizdə olimpiya idman komplekslərində idmanın bu və ya digər növü ilə məşğul olurlar.

Asudə vaxt-azad vaxtdır. Hər yaş dövründə bu vaxtdan düzgün istifadə etmək özünəməxsus əhəmiyyət kəsb edir. Hər bir şəxs yaşından asılı olmayaraq çalışmalıdır ki,boş vaxtını maraqlı və səmərəli keçirsin. "Vaxt qızıla bərabərdir" deyənlər səhv erməyiblər. Vaxtın tam,dolğun sərf edilməsi, vaxt itkisinə yol verilməməsi zamanın tələbidir.

Dövlət gənclər siyasətinin prioritet istiqamətlərindən biri istedadlı gənclərə dövlət qayğısıdır. Bu sahədə görülən iş yaradıcı və istedadlı gənclərin aşkar edilməsi, onların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əlverişli mühitin formalaşdırılması, eləcə də gənclərin asudə vaxtının səmərəli təşkil edilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsindən ibarətdir. Yaradıcı və istedadlı gənclərlə iş paralel olaraq bir neçə istiqamətdə aparılır.

Elm, təhsil, mədəniyyət və incəsənət sahəsində istedadlı gənclərin aşkar olunması, onlarla fərdi işin qurulması və peşəkarlıq səviyyəsinin yüksəldilməsi - Bu sahədə davamlı olaraq müxtəlif mədəni-maarif tədbirləri - festivallar, sərgilər, müsabiqələr keçirilir. İstedadlı və yaradıcı gənclərə göstərilən dövlət dəstəyinin ünvanlılığının və səmərəliliyinin artırılması məqsədilə mədəniyyət və incəsənət sahəsində gənclərin yaradıcılıq nailiyyətlərinin mübadiləsi, ustad dərsləri, sənətə baxış kimi tədbirlərin həyata keçirilməsinə üstünlük verilir, yaradıcı gənclərin problemlərinin öyrənilməsi və onların həlli yollarının müəyyənləşdirilməsinə xüsusi diqqət ayrılır.

Məktəblilərin asudə vaxtının düzgün təşkili onların müəyyən fəaliyyətə cəlb olunması deməkdir. Asudə vaxt düzgün təşkil olunduqda məktəblidə əməyə maraq güclənir,onlarda mədəniyyət və incəsənət nümunələri ilə tanış olmaq həvəsi artır.Asudə vaxtın səmərəli və düzgün istifadə forması şəxsiyyətin şüur və əqidəsinə, həyata baxışına təsir edir, onların inkişafına təkan verir. Böyüməkdə olan gənc nəslin tərbiyəsində ailə, məktəb və eləcə də bütün cəmiyyətin müstəsna rolu vardır. Uşaq kitabxanaları bu siyahıda məktəblərdən sonra birinci yerdədir. Uşaq kitabxanaları yetişməkdə olan gənc nəslin tərbiyəsində çox böyük təsir qüvvəsinə malikdir. Oxucuların tərbiyəsi, mütaliəsi və asudə vaxtının təşkili ilə məşğul olan hər bir kitabxanaçı işini elə qurmalıdır ki,yetişən hər bir gənci dövrün tələblərinə cavab verə bir səviyyəyə çatdıra,bilik və bacarıqlara yiyələndirə bilsin. Məktəblilərin fiziki cəhətdən sağlam və gümrah olmasında, həm də mənəviyyatca formalaşmasında vaxtdan səmərəli istifadə etmık böyük əhəmiyyətə malikdir. Həmçinin uşaqların savadlı,zəhmətsevər, zəngin dünyagörüşünə malik olmasında asudə vaxtının düzgün təşkili vacib şərtlərdən biridir.

İstirahətin və asudə vaxtın təşkili məktəblilərin istər fiziki, istərsə də psixi sağlamlığı nöqteyi - nəzərindən böyük məna kəsb edir.

Hər bir ailə uşaqların istirahət günləri və asudə vaxtlarının səmərəli təşkil olunmasına imkan daxilində şərait yaratmağa borcludur. Çünki uşaqların əxlaqi və estetik tərbiyəsinin inkişafında istirahətin özünə məxsus yeri var. Tətilin müxtəlif yerlərdə keçirilməsi uşaqlarda xoş təəssürat, gözəl əhval - ruhiyyə yaradır. Uşaqlar bir - biri ilə fikir mübadiləsi edir, təəssüratlarını bölüşür, yeni məlumatlar əldə edirlər.

Gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq əsas hədəflərdən biridir. Ölkədə intellektual hərəkatın inkişafı və gənclərin beynəlxalq intellektual hərəkata qoşulmasına şəraitin yaradılması üçün silsiləvi tədbirlər həyata keçirilir. Bu məqsədlə gənclər arasında müxtəlif intellektual oyun növləri təbliğ edilir, ənənəvi oyun növləri üzrə respublika və beynəlxalq səviyyəli çempionatlar, yarışlar, turnirlər təşkil edilir, respublikanın müxtəlif regionlarında intellektual klublar yaradılır.

Təəssüf ki, bir çox ailələr uşaqların istirahət və asudə vaxtlarının təşkil olunmasına bir o qədər də əhəmiyyət vermirlər. Hətta elə ailələr də var ki, övladını istirahət üçün maraqlı yerlərə, müxtəlif ölkələrə aparsa da uşaq daxilən bundan zövq almır. Səyahətlər onu sevindirmir. Deməli, burada ilk növbədə uşağın maraqları, psixologiyası, daxili aləmi nəzərə alınmalı, hər bir valideyn öz uşağı üçün nəyin daha maraqlı olduğunu bilməlidir".

**Sosioloq Əhməd Qəşəmoğlu:** "Asudə vaxt insanın həyatında çox mühüm rol oynayır. Asudə vaxtın sturukturu və tərkibi də insan haqqında böyük məlumat verir. Biz sadəcə gəncləri tənqid etməməliyik.



Daha çox tənqid payı böyüklərin üzərinə düşür. Biz uşaqlarımızı 6 yaşına kimi düzgün tərbiyə edib formalaşdırmırıq. Uşağı tənbəl öyrədirik və onda həyata həvəs yaratmırıq. Sonra da gətirib qoyuruq məktəbə.

Gənclərə uşaq vaxtından idman etməyi aşılamalıyıq. Ona stimul verməliyik. Bununla bağlı ölkədə maarifləndirmə işləri getməlidir. Sovet rejimində iş yerlərində hər səhər işdən öncə idman edirdilər. İndiki gənclər qumar oyunlarına meyl edir və asudə vaxtlarını da belə dəyərləndirir. Bu sahədə ciddi işlər görülməlidir".

***Ayşən Vəli***

# Zəngin tarixi keçmişini yaşadan, müasirliyə qucaq açan Şamaxı

**Zəngin mədəni irsi, görkəmli elm-mədəniyyət xadimləri, turizm infrastrukturu, əlverişli coğrafi mövqeyi, iqlimi, müalicəvi mineral su ehtiyatları, fauna-florası, kənd təsərrüfatı, təbii-tarixi abidələri, el sənətkarları ilə şöhrətlənən Şamaxı rayonu Şirvan regionunun tarixi mərkəzi, Şirvanşahlar dövlətinin min ilə yaxın paytaxtı olmuşdur. Belə şəhərin bu gün 2023-cü il üçün "Türk dünyasının turizm paytaxtı" seçilməsi tarixiliyini qoruyub saxlaması və müasirliklə vəhdətdə inkişafda olduğuna dəlalət edir. Bu barədə qərar Türk Dövlətləri Təşkilatının turizm nazirlərinin 7-ci iclası və turizm üzrə işçi qrupunun 17-ci iclasında qəbul edilib.**

Əlbəttə ki, tarixi yaddaşı olan şəhərin tikinti-quruculuq tədbirləri həyata keçirilərkən Şamaxının qədimliyinin, milli memarlıq üslubunun qorunmasına ciddi fikir verilib və bu gün də belədir. Elə buna görə də müasir və qədim Şamaxıya turistlərin marağı getdikcə artır. 2013-cü ilin may ayında 743-cü ilin yadigarı Şamaxı Cümə Məscidinin və Şamaxı Astrofizika Rəsədxanasının yenidənqurmadan sonra istifadəyə verilməsi, Şamaxı-Avaxıl yolunun yenidən qurulması Şamaxıya daha da çox turist axınına səbəb olmuşdur. Şamaxıya səfər edən turistlərin marağına səbəb ola biləcək məskənlərdən olan Şamaxı Astrofizika Rəsədxanasında çətin müşahidə edilən Cənub səmasının tədqiqatları aparılır. Rəsədxananın muzeyində qiymətli eksponatlar nümayiş etdirilir.

Şamaxı ictimaiyyətinin bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevə müraciətində bu şəhərin dövlət başçısının rəhbərliyi ilə inkişaf etdiyi, gözəlləşdiyi bildirilib: "Məhz Sizin ayrı-ayrı vaxtlarda imzaladığınız Sərəncamlarla aparılan abadlıq-quruculuq işləri, tarixi mədəniyyət abidələrinin əsaslı təmiri və yenidən qurulması nəticəsində rayonumuzun iqtisadiyyatı, mədəniyyəti, turizm potensialı və digər sahələri getdikcə inkişaf etməkdədir. Şamaxıda küçə və prospektlərin, digər avtomobil yollarının işıqlandırılması, rayon ərazisinin yaşıllıq aşdırılması istiqamətində bir çox işlər görülmüşdür". Belə ki, dövlət başçısının göstərişi ilə Şamaxı Cümə məscidində, Pirsaat Baba ziyarətgahında, Şahxəndan türbəsində və digər tarixi-mədəni abidələrdə aparılmış yenidənqurma işləri aparılmışdır. Xalqımızın mənəvi dünyasına verilmiş yüksək qiymətlə yanaşı, bu turizm sahəsinin də inkişafında xüsusi əhəmiyyət kəsb edir. Türk Dövlətləri Təşkilatı tərəfindən qədim şəhərimiz Şamaxının 2023-cü il üçün Türk dünyasının Turizm Paytaxtı seçilməsi şamaxılıların sevincinə sevinc qatıb.

## TURİSTLƏR ÜÇÜN ƏSL MÖCÜZƏLİ MƏKAN

Əlbəttə ki, təbiət bu diyardan heç nəyi əsirgəməyib. Turizmin bütün növləri demək olar ki burada mövcuddur. Bütövlükdə rayonun iqlimi mülayim, torpaqları münbit, flora və faunası zəngindir. Rayonun dağlıq zonası müalicə və kurort əhəmiyyətli mineral sularla zəngindir. Rayonun istər tarixi, istərsə də coğrafi baxımdan ərazisi, ekoloji durumu istirahət və turizm üçün olduqca əlverişlidir. Coğrafi mövqeyinə görə Şamaxı rayonu ölkə turizminin inkişafı üçün ən cəlbedici məkanlardan biri hesab olunur. Belə ki, Şəhərin giriş hissəsində onun qədimliyini divarlarında Böyük İpək yolunu xatırladan dəvə karvanının əksi, Qız qalasının maketi, "Koroğlu" meydanı kimi yerlər xatırladır. Burada Şirvanşahlar dövlətinin 11-12 əsr abidəsi olan "Gülüstan" qalası maraqlı turizm obyektidir.

Şamaxıda şəhərin tarixi haqqında ətraflı məlumat verən, zəngin ekspozisiyası olan Tarix-Diyarşünaslıq Muzeyi mövcuddur. Heydər Əliyev Mərkəzi, M.Ə.Sabirin Ev-Muzeyi, Dövlət Rəsm Qalereyası da qonaqların maraqlarına səbəb ola biləcək məkanlardır. M.Ə.Sabirin "Yeddi günbəz" qəbiristanlığındakı məqbərəsi, S.Ə.Şirvaninin "Şahxəndan" qəbiristanlığındakı məzarı və qəbirüstü abidəsi, Qafqazın ən qədim müsəlman məbədi olan Cümə məscidi, 13-14 əsrlərə aid Pirmərdəkan türbəsi, 18 əsrə aid 7 türbədən ibarət olan Yeddi günbəz kompleksi, 8-15 əsrlərə aid Gülüstan qalası, 12-14 əsrlərə aid əfsanəvi Qaleybuğurd qalasının qalıqları rayona gələn turistlər üçün əsl möcüzəli yerlərdir.Hazırda Şamaxıda Şirvanşahlar dövründə inşa edilən məscidlər, körpülər, hamamlar, karvansaralar, "Gülüstan", "Quşçu", "Başıbağlı" qalaları və digər tarixi abidə və maddi mədəniyyət nümunələri mövcuddur.

## ŞAMAXI DİNAMİK İNKİŞAF MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUB

Tarixi abidələri ilə seçilən Şamaxı pir və ziyarətgahları ilə diqqətdə olan bölgələrimizdəndir. "Şeyxməhəmməd", "Pir-Mərdəkan", Mir Səid, Qara Sofi (Yel piri də deyirlər), Şeyx Əyyub piri, Uzun yol piri, Qəriblər piri, Yeddi günbəz piri, Alçalı piri, Dədəgünəş piri və bir çox başqa müqəddəs yerlər insanları daim bu əraziyə cəlb etmişdir. Əlbəttə ki, inkişaf edən şəhərdə bir sıra beynəlxalq tədbirlər də baş tutmuşdur. Müraciətdə qeyd olunduğu kimi, belə tədbirlərin təşkili qədim tarixə malik olan Şamaxının adət-ənənələrinin, mədəniyyətinin, tarixinin, turizm imkanlarının tanıdılmasına, mədəni həyatının dirçəldilməsinə böyük təsir göstərəcək, inkişafı üçün geniş üfüqlər açacaqdır. Şamaxı ictimaiyyəti qədimliyini qoruyub saxlayan, zəngin tarixi keçmişini yaşadan, müasirliyə qucaq açan bu şəhərin inkişafına dövlətimiz tərəfindən göstərilən diqqət və qayğıya görə Cənab Prezidentə dərin minnətdarlıqlarını bildiriblər.

Şamaxıda "Sehrli həyat", "Qızıldaş", "Qoşabulaq", "Babayurd", "Dağlar qoynunda" və s. istirahət mərkəzləri il ərzində ən çox qonaq qəbul edən obyektlərdir. Bura paytaxt sakinlərinin və idman turizmi həvəskarlarının populyar istirahət yeri hesab olunur. Xüsusilə atçılıq, velosiped, qış vaxtlarında isə xizək turizminin inkişafı üçün burada münbit şərait vardır.

Rayon ərazisində bir neçə yerdə turistləri maraqlandıran palçıq vulkanlarına rast gəlmək olur. Bunlardan ən böyüyü Şamaxı-Dəmirçi yolunun 30-31-ci kilometrliyində yerləşir. Şamaxı-Çağan yolunun sonunda Ağsuçayın yatağında temperatur 38-390 C olan termal Çağan Bədosu yerləşir. Yüksək mineral tərkibli bu su müalicəvi xüsusiyyətlərə malikdir.

Digər rayonlarda olduğu kimi, Şamaxı rayonunda da olimpiya idman kompleksi vardır. Rayona gələn turistlərin butada dincəlməsi və müxtəlif idman yarışlarına baxmaq imkanları da vardır. Rayon mərkəzində, beynəlxalq standartlara uyğun şəhər stadionunda, idman kompleksində idmanla məşğul olmaq, onun ətrafında yerləşən istirahət parkında istirahət etmək üçün hər cür şərait vardır. Son vaxtlar Şamaxı rayonunun Şərədil kəndində yüksək səviyyədə müasir standartlara uyğun beşulduzlu "Şamaxı Palace Platinum" mehmanxanası fəaliyyətə başlamışdır. Bu otel təkcə Şamaxı rayonu üçün deyil, bölgə üçün də əhəmiyyətli turizm obyektidir. Mükəmməl infrastruktura malik olan mehmanxana kompleksindəki şərait böyük turizm potensialına malik olan Şamaxıda turistlərin yüksək səviyyədə qəbulu üçün geniş imkanlar yaratmışdır.

Müraciətdə dövlət başçısının gərgin fəaliyyəti nəticəsində respublikamızın hər bir regionu kimi Şamaxının da öz dinamik inkişaf mərhələsinə qədəm qoyduğu bildirilir: "Azərbaycanın tarixinə, mədəniyyətinə və incəsənətinə göstərdiyiniz diqqət sayəsində zəngin təbiətə malik ölkəmizdə turizm potensialının inkişafını daha da artırır".

*Nəzakət ƏLƏDDİNQIZI*




# "Azərbaycan bu məsələdə Türkiyəni dəstəkləyir"

**"Azərbaycan və Türkiyə rəhbərlərinin qarşılıqlı sürətdə bir-birinin ölkəsinə səfər etməsi dostluq, qardaşlıq və yaxın münasibətlərimizin bariz nümunəsidir. Dünyada Azərbaycan və Türkiyə kimi bir-birinə yaxın olan iki ölkə yoxdur. Bu tariximizdən, cəmiyyətimizin hakimiyyətə verdiyi ciddi siyasi sifarişdən gələn bir məsələdir və iki ölkə ötən tarix ərzində bir-birinə dostluğu daima nümayiş etdirib". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.**

Onun sözlərinə görə, Azərbaycanın böyük dostu, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri iki ölkə arasındakı münasibətləri daha yüksək səviyyəyə qaldırmağa kömək edəcək: "Həm mövcud vəziyyətin təhlili, həm də bundan sonrakı birgə atılacaq addımların müzakirəsi çox vacib məsələlərdəndir. Eyni zamanda bu gün Türkiyə Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərində bərpa işlərində yaxından iştirak edir, öz siyasi, mənəvi və digər dəstəyini göstərir".

Deputat sözlərinə belə davam edib: "Bu gün dəyişən və mürəkkəbləşən dünyada sabitliyin qorunması üçün ciddi addımlara ehtiyac var. Bu istiqamətdə həm Azərbaycan, həm də Türkiyə vaxtaşırı öz təşəbbüslərini verirlər. Türkiyənin dünya siyasətində rolu həddindən artıq böyükdür və bu gün NATO-nun genişlənməsi ilə bağlı məsələlərdə Türkiyənin regional və dünya təhlükəsizliyi məsələlərinin, terrorizmə qarşı mübarizənin vacibliyi məsələsi çox əhəmiyyətlidir. Azərbaycan bu məsələdə Türkiyəni dəstəkləyir. Həmçinin regiondan iqtisadi layihələrin həyata keçirilməsi ilə bağlı bir sıra mühüm təşəbbüslərin irəli sürülməsi də mümkün ola bilər.

Ümumən götürdükdə Azərbaycan və Türkiyə rəhbərlərinin qarşılıqlı səfərləri zamanı dünya həmişə dünyada stabilliyi və inkişafı təmin edəcək yeni təşəbbüslərin şahidi olur. Bu səfər zamanında biz bunun şahidi olacağıq".



*Ayşən Vəli*

# Ümummilli Lider Heydər Əliyev irsinin öyrənilməsi barədə tədbir keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatında "Biz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin elmi-siyasi irsini öyrənirik" adlı tədbir keçirilib.***

SİA xəbər verir ki, tədbirdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev və pedaqogika üzrə elmlər doktoru Piralı Əliyev iştirak edib. Tədbirdə ilk olaraq Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muxtar Nağıyev bu cür tədbirlərin keçirilməsinin və gənclərin Heydər Əliyev irsi barədə geniş məlumata sahib olmasının əhəmiyyətini vurğulayıb: "Biz bu tədbiri keçirməklə nəzərdə tutmuşuq ki, Heydər Əliyevin irsi, Azərbaycanın qurulmasında atdığı böyük addımlar barədə gənclərimizi məlumatlandıraq. Əziz gənclər, zaman göstərdi ki, Heydər Əliyevin Azərbaycan xalqının taleyi və ölkəmizin bu günü üçün gördüyü işlər əvəzsizdir. Siz gənclər də, əminəm ki, hər biriniz böyük şəxsiyyət haqqında kifayət qədər məlumatlı olmaq istəyirsiz. Bu məktəbin də əsas əhəmiyyəti ondan ibarətdir ki, siz bu xalqın dahi şəxsiyyətini daha yaxından tanıyasınız. Bu gün dünyada elə xalqlar var ki, onlar Heydər Əliyev kimi bir dahi şəxsiyyətlərinin olmasını arzu edirlər".

Daha sonra pedaqogika üzrə elmlər doktoru Piralı Əliyeva çıxış edərək bildirib ki, Heydər Əliyev irsi elmi, pedaqoji, siyasi baxımdan çox geniş rakursludur. Bu irs nə qədər araşdırılsa belə, hələ də araşdırılmağa və yeni məlumatlar öyrənilməyə davam edilir. Ulu Öndər Heydər Əliyev hər zaman gənclərə xalqın gələcəyi kimi baxıb və onların təhsil almasının vacibliyini bildirib. Bu istiqamətdə də hər zaman böyük addımlar atıblar. Çıxışlar bitdikdən sonra isə gənclərin sualları cavablandırılıb və maraqlı müzakirələr aparılıb.

***Səbinə Hüseynli***



# YAP Nəsimi rayon təşkilatında 28 May-Müstəqillik Gününə həsr edilmiş tədbir keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında 28 May - Müstəqillik Gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə YAP İdarə heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, Nəsimi rayon ərazi partiya təşkilatlarının sədr və müavinləri iştirak ediblər. Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Xalq Cümhuriyyətinə həsr edilmiş video-çarx nümayiş etdirilib. Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixin dövlət səviyyəsində qeyd olunmasında, 1918-1920-ci illərdə qazanılmış uğurların araşdırılaraq dünyaya çatdırılmasında Ümummilli Liderimiz Heydər Əliyevin misilsiz xidmətlərini xüsusi vurğulayaraq bildirib ki, Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olan Müstəqil Azərbaycan dövlətinin öz sələfinin dövlətçilik ideya və ənənələrini davam etdirəcəyini, ölkəmizin müstəqilliyinin əbədi olacağını bəyan etmişdir.

Sonra çıxış edən millət vəkili Hikmət Babaoğlu qeyd edib ki, 1918-ci il mayın 28-də elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti türk və İslam dünyasında ilk parlamentli respublika və demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Yaradılmasından 23 ay keçəndən sonra - 1920-ci il aprelin 28-də rus-bolşevik ordusu tərəfindən müstəqil Azərbaycan dövlətinin fəaliyyətinə son qoyulmuşdur. Yalnız 1991-ci ildə SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikası özünü 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin varisi elan etmiş və dövlət müstəqilliyimiz yenidən bərpa olunmuşdur.

Nəsimi rayon ərazi partiya təşkilatının sədri, tarix elmləri doktoru Qorxmaz Mustafayev vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, nəhəng işlər görmüş, xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Sonda çıxış edən Nəsimi rayon ərazi partiya təşkilatının sədri Yavər Məmmədov bildirib ki, bu il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli Respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104 ili tamam olur. 4 il öncə Azərbaycan Respublikası prezidenti İlham Əliyev Cənablarının müvafiq Sərəncamı ilə 2018-ci il ölkəmizdə "Cümhuriyyət ili" elan edilmiş və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi təntənə ilə qeyd olunmuşdu. Bu il ilk dəfə olaraq 28 may tarixi Müstəqillik Günü kimi qeyd ediləcək.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

# "Müsəlman Şərqində ilk hüquqi, dünyəvi, demokratik dövlət"

## *YAP Göygöl rayon təşkilatında bu mövzuda dəyirmi masa keçirilib*



**Dünən YAP Göygöl rayon təşkilatı 28 May Müstəqillik Günü münasibətilə "Müsəlman Şərqində ilk hüquqi, dünyəvi, demokratik dövlət" mövzusunda dəyirmi masa keçirib. İlk öncə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidə önünə gül dəstələri düzülüb.**

YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev çıxış edərək, müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən danışaraq, 1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində çar Rusiyası devrildikdən sonra, çarizmin məzlum vəziyyətə saldığı xalqların milli hərəkatı başlandığını, 1918-ci il mayın 28-də Məhəmməd Əmin Rəsulzadənin başçılığı altında müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət Azərbaycan Xalq Cümhuriyyəti yarandığını bildirərək qeyd etmişdir ki, yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə ordusu yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı.



Azərbaycan Xalq Cümhuriyyəti 23 aydan sonra təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli Lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, Azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

Ulu öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev müstəqillik yolu ilə irəliləyən Azərbaycanı daha böyük zirvələrə çatdırıb və ölkəmiz bütün dünyada güclü dövlət kimi tanınır. Sonra ərazi partiya təşkilatının sədri İsmayıl Əvəzov, ərazi partiya təşkilatının sədr müavini Pünhan Qasımova çıxış ediblər. Tədbirin sonunda üzvlüyə yeni qəbul olunmuş bir qrup partiya üzvünə üzvlük vəsiqələri təqdim olunub.

**Əxlaq dedikdə insanın bütün xüsusiyyətləri və adət etdiyi vərdişlər nəzərdə tutulur. İnsan bu xüsusiyyət və vərdişlərin təsiri ilə yaxşı və ya pis davranışlar sərgiləyə bilər. Bir anlayış olaraq əxlaq və ya davranışın həm müsbət, həm də mənfi tərəfləri var.**



# Otel sauna, yoxsa əxlaqsızlıq yuvaları?

ARAŞDIRMA

Möminlərin gözəl əxlaqa malik olması İslam dininin əsas məqsədidir. İslam dini sonuncu və ən kamil din olduğu üçün əxlaqi prinsipləri də sonuncu, ən gözəl və ən yüksək əxlaqi əsaslardır. İslam əxlaqının əsasını Allahın əmr və qadağaları təşkil edir. Əxlaq gözəl davranışlar edib onları vərdiş halına salmaq, pis davranışlardan uzaq durmağa çalışmaq və özünü qorumaqdır. Əxlaqlı insan həm də gözəl davranışlarla özünü inkişaf etdirən, pis davranışlardan uzaq durmağa çalışan insandır. Dinimizə görə əxlaq və iman bir-birini tamamlayır. Çünki əxlaqi prinsiplərə riayət etmək, qadağalardan çəkinmək imanın tələbidir.

Əxlaqsızlığın birinci növbəli növü insan alveridir. Dünyanın bir çox ölkələrində insan alveri ilə bağlı problemlər var. Burada əsas rol oynayan hissə isə qadın alveridir. Belə ki, işbazlar qadınlar üzərindən milyonlarla pul qazanırlar. Qadın alveri dünya ilə yanaşı Azərbaycanda da aktual problemlərdən biridir. Təəssüflər olsun ki, buna qarşı nə qədər maarifləndirici və inzibati tədbirlər görülsə də ardı-arası kəsilmir.



Ölkəmizdə 2000-ci ilin dekabrın 12-də imzalanmış və 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının qanunu ilə təsdiq edilmiş BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" haqqında protokolun, habelə 20 sentyabr 2002-ci ildə qəbul edilən "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsinin müddəaları nəzərə alınaraq "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" təsdiq edilib. Bu plan əsasında indiyə qədər ölkə ərazisində fəaliyyətdə olan yüzlərlə əxlaqsızlıq yuvasının işinə xitam verilib və fahişəliyi təbliğ edən şəxslər cəzalandırılıb.



Lakin qadın alverinin sayı günü-gündən artmaqda davam edir. Məmurların qoruduğu sauna, kafe, masaj salonları, otel və istirahət mərkəzləri adı altında fəaliyyət göstərən yerlərin sayı bu gün də kifayət qədərdir. Onlar bu işi çox peşəkarlıqla edirlər. Bu obyektlərin mövcudluğu təhlükə mənbəyidir. Bu yerlər gələcək üçün əmanət edilən milli-mənəvi dəyərlərimizi uçuruma aparır.

SİA mövzu ilə bağlı araşdırma edərək ekspertlərin fikirlərini öyrənib.

**Vəkil Turan Abdullazadə problemin hüquqi yanlarına toxunub:** "Bəzi dövlətlərdə fahişəlik xidməti qanuni olsa da, bir çox dövlətlərdə, xüsusilə də İslam dininin daha çox yayıldığı ölkələrdə, eləcə də Azərbaycanda qanunla qadağan edilib.



Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əsasən fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə- iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda cərimə və ya dörd yüz saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Şəxsləri fahişəliyə məcbur etmə cinayət məsuliyyətinə səbəb olub on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etmə-iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz iyirmi saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Könüllü heç kimi cəlb etmədən fahişəliklə məşğul olma isə cinayət məsuliyyəti yaratmır. Lakin belə şəxslər inzibati məsuliyyət daşıyırlar. İnzibati Xətalar Məcəlləsinə əsasən fahişəliklə məşğul olmağa görə -yüz manat məbləğində cərimə edilir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi belə hallarla bağlı müraciət, ərizə, şikayət daxil olduqda faktla bağlı araşdırma aparır. Əgər əməldə cinayət tərkibi varsa faktla bağlı cinayət işi başlanıla, əməli törətməkdə təqsirli bilinən şəxslər cinayət məsuliyyətinə cəlb edilə bilər.

Lakin qeyd etdiyiniz kimi, təəsüflər olsun ki, hələ də əxlaqsızlıq yuvaları gizli də olsa fəaliyyət göstərir. Onlardan bəziləri "masaj salonları", "sağlamlıq mərkəzi" və sair adlar altında kamuflaj olunurlar. Bəzi şəxslər isə kirayə mənzillərdə bu qanuna zidd fəaliyyəti təşkil edirlər. Qanun pozuntuları ilə mübarizədə hüquq mühafizə orqanlarına dəstək məqsədilə vətəndaşlar yaşadıqları ərazidə əxlaqsızlıq yuvalarının fəaliyyət göstərməsinə dair əsaslı şübhələri və yetərli faktları varsa bu barədə hüquq mühafizə orqanlarına hüquqa uyğun tədbirlər görülməsi üçün məlumat verə bilərlər".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Əxlaqsızlıq yuvalarının mövcudluğu utancverici haldır, milli-mənəvi dəyərlərimizin aşıqlanmasına gətirib çıxarır. Bu cür hallarla amansız mübarizə aparmaq lazımdır.

Təəssüf ki, həm Bakıda, həm də ayrı-ayrı bölgələrdə bu cür iyrənc üsullarla pul qazanan adamlara rast gəlmək mümkündür. Adətən, həmin şəxslər iaşə obyektlərini hədəf seçir, öz çirkin niyyətlərini bu məkanlarda həyata keçirməyə çalışırlar. Hansı ki, həmin məkanların bu cür fəaliyyətlə məşğul olmağa icazəsi yoxdur. Müvafiq qurumlar ciddi nəzarət mexanizmi tətbiq etməklə bu cür mənfi halların sayını əhəmiyyətli dərəcədə azalda bilərlər.



Hüquq-mühafizə orqanları əxlaqsız yuvalarına qarşı mütəmadi mübarizə aparır. Analoji fəaliyyətlə məşğul olan adamlar cəzalandırılır, onların barəsində qanuna müvafiq qaydada tədbirlər görülür. Amma hesab edirəm ki, mübarizəni gücləndirmək lazımdır. Təkcə hüquq-mühafizə orqanları deyil, həm də digər dövlət qurumları öz səlahiyyətləri çərçivəsində mübarizəyə qoşulmalı, cəmiyyət səfərbər olunmalıdır. Bu cür obyektlərin sayının durmadan artmasının səbəblərini də araşdırmaq lazımdır. Açıq danışmaq lazımdır, bu fəaliyyətlə məşğul olan bəzi obyektlər ayrı-ayrı səlahiyyətli şəxslərin himayəsi altında olur. Hesab edirəm ki, həmin şəxsləri ifşa etməklə mübarizənin effektivliyini artırmaq mümkündür".

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin polis leytenantı Nurlan Əliyev: "Belə hallar aşkarlanacağı təqdirdə, tərəfimizdən mütəmadi olaraq bu barədə tədbirlər həyata keçirilir. İnsanların vəziyyətindən istifadə edərək aldatma yolu ilə fahişəliyə cəlb etmə halları müşahidə olunur. Bu cür neqativ hallarla bağlı maarifləndirici tədbirlər həyata keçiririk.

Vətəndaşlara daha ayıq-sayıq davranmaqla bağlı müraciətlər edirik. Əgər hər hansı şəxs insan alveri ilə məşğul olanları tanıyırsa, bu barədə məlumatı varsa dərhal Daxili İşlər Nazirliyinin 102 zəng mərkəzinə, İnsan Alverinə Qarşı Mübarizədə Baş İdarəyə, həmçinin DİN-in sosial şəbəkələrdəki səhifələrinə məlumat verməleri xahiş olunur".

***Ayşən Vəli***

# QARDAŞ İTKİSİNİ YAŞAMAQ DA VARMIŞ...



Həyatda hər kəs Allahın nəsib etdiyi bir ömür yaşayır, yaşlanır, dünyasını dəyişir, hər bir itikini necə yaşayırsan onu əzizlərini itirənlər yaşayır. Amma qardaş itkisi çətin dərddir, özü də beş bacının bir qardaşını, ailə həyatı qurmayan mehriban, qayğıkeş qardaşı itirmək.... İki ildir ki, bizdən ayrı düşmüsən arxamız, dayağımız, beş bacının bir ümidi Akif. Bu iki ilin hər ayını, hər həftəsini, hər gününü beş bacılar bir-birindən xəbərsiz içimizdə çəkmişik. Danışıqların, bacı balalarına məhəbbətin, qayğın, "neyləyirəm evlənməyi, bunlar mənim balalarımdır" dediyin sözləri, oturduğun yerləri, arzularını elə gün olmur ki, xatırlamayaq. Çünki qardaş dərdi yaman ağır olur, bacılar üçün. Bu iki ildə sənsizliyimizin nə qədər ağır olduğunu qardaş itirən bacılar bilir. Bu dərdi də çəkdik. Bütün şəhid olan qardaşlara, bütün qardaş itirən bacıların dərdlərinə qurban. Çox çətin dərddir, ağrıdır qardaş itirmək. Biz bacıların bu iki ildə qardaşsız keçən günlərindən danışmaq istədim, ancaq qəhər boğdu məni. Birdən özümdən asılı olmayaraq qışqıraraq: "Ay qardaş", deyib hönkürtü ilə ağladım, ağladım... Nə qədər çətin dərddir, nə danışa bilirsən, nə də ürəyindən keçənləri ifadə edə bilirsən, qəhər boğur. Bu iki ildə sənsizliyimiz olan beş bacının bir qardaşı, hər bacıya canını qurban edən, bacı balalarının hər biri ilə sevinib başına fırlanan mehriban dayını itirmək necə də çətinimiş. Sənsiz hər günümüz illərə dönüb, yer tapa bilmirik. Ancaq fələk səni bizdən amansızcasına aldı. Qoymadı ki, gəlib əlimiz əlinə, gözümüz gözünə baxa. Nə çətinimiş qardaşı qara daşa dönən bacıların dərdi. Qardaşı qara daşa dönən bacılara biz bacılar qurban.

*Dərmanı tapılmaz, dərdi bilinməz,*
*Sağalmaz yaradı - qardaş ölümü.*
*Dünyanı dolanıb gəzsən nə qədər,*
*Tapılmaz çaradı - qardaş ölümü.*

*Ürəyindən şirə çəkib, yetişən,*
*Nə sağalan, nə kəsilən, bitişən.*
*Köksünü göynədib, qəlbinə düşən,*
*Silinməz qaradı - qardaş ölümü.*

Dağ olub dalımızda duran qardaşım laylay. "Qardaş deyəndə dilim yandı" deyən bacılar ağlasın. Sən hamının qardaşı idin, ürəyi təmiz, könlü tox, mərd qardaşımız idin. Axı ata-anamızdan sonra son ümidimiz sən idin, ay qardaş, niyə getdin uzağa... İki il bizdən ayrı düşməyinə, yoxluğuna inanmırıq, gözümüzün işığı qardaş. Səni sevmək, əzizləmək demə az imiş. Səni qorumaq da lazım imiş. Sən həyata qarşı çox bədbin idin. Ailə də qurmadın. Ona görə də həmişə deyirdin: "Tək gəlmişəm bu dünyaya, tək də gedəcəm".

Sən, həyata tək olaraq "əlvida" deyib, ömrünü tapşırdın. Ruhun göylərə uçdu... Amma sənin beş yetim bacıların, "bacımın balaları balalarımdır" dediyin o uşaqların, qohumların, dostların, tay-tuşların iki il keçməsinə baxmayaraq sənin yoxluğuna heç cürə inana bilmirlər... Bizə "əlvida" dediyin gündən hamı sənin xeyirxahlığından, böyük ürəyindən, insanlara yalnız yaxşılığından, mərdliyindən, bacılarına bağlılığından, yaraşığından danışıb, göz yaşları tökürdülər, bu gün də sənin yoxluğuna inanmırlar.... Axı sən, üzərində gəzdiyin torpağın da üstünə ayaqlarını ehtiyatla qoyurdun ki, birdən torpaq səndən inciyər... Bəs sən bizə niyə qıydın qardaş?.. Niyə hər şey birdən-birə alt-üst oldu? İndi başa düşürəm ki, bu dünyanın bütün naz-neməti, var-dövləti sənin bir baxışına, bir təbəssümünə dəyməzmiş, qardaşım... Sən bizi həyatda ümidsiz qoydun. Sən bilirdin ki, anamızın, atamızın qəlbində yanar bir çıraq idin. Ata, anamız səndən nigaran getdi, sən də bizi ümidsiz etdin, qardaş. Bəs niyə o çırağı söndürdün? Niyə özünü qorumadın?.. Hər şeyi ürəyində, içində çəkdin. Çəkdin... sonda...

*Ağladır dərd bizi, boğur bu qəhər,*
*Zalım fələk zülm olmaz bu qədər.*
*Sınıq ürəyimizin sözüsən qardaş,*
*İşıqlı dünyamızın, közüsən qardaş.*

Deyir əri eldən taparlar, oğulu beldən alarlar, bəs qardaşı hardan alarlar? Dağlarda dağım qardaş, bağlarda bağım qardaş, sərin yaylağım, qaranlıq yollarımın işığı, qardaşım lay-lay. Sinəmizdə qardaş həsrəti bizi yandırır, heç nə ilə təsəlli tapa bilmirik. Yerimiz od tutub yanır. Necə də yanmayaq, axı yerin soyuqdur, qardaş...

*Yatma bu quru yerdə, dur gedək, qardaş,*
*Salma bizi dərdə, dur gedək, qardaş.*

Ancaq neyləyək ki, özün əbədi yerini seçdin, ölümünlə öldürdün bizi. Ömürlük dərd verdin bizə.

Allah sənə rəhmət eləsin, qardaş, yerin cənnət olsun, məzarın nurla dolsun, təmiz qəlbli qardaşımız, Akif!

**QARDAŞSIZ BACIN RƏFİQƏ**

# "Ukrayna ərazisindən bir parça Rusiyaya vermək..?"

## *Zelenski düşmənə güzəşt təkliflərinə sərt cavab verib*

**Prezident Vladimir Zelenski bəzi Qərb siyasətçilərinin Ukraynanın Rusiyaya güzəştə getməsi, o cümlədən ərazisinin bir hissəsini verməklə bağlı təkliflərini tənqid edib.**

Ənənəvi axşam videomüraciətində dövlət başçısı, xüsusən də ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin sözlərinə kəskin cavab verib. Qeyd edək ki, bundan əvvəl də Kissincer Ukraynanın güzəştə getməsi tələb olunsa belə, Rusiya Federasiyası ilə danışıqlar aparmalı olduğunu bildirmişdi.Amma, Zelenski dünyada təcavüzkar ölkənin maraqlarının nəzərə alınması ilə bağlı təkliflərin olmasından hiddətlənib.

Beləliklə, dövlət başçısı bildirib ki, Rusiyanın Ukraynaya vurduğu yaralara, Ukrayna torpaqlarında etdikləri özbaşnalıqlara, zorlama və alçaltmalara baxmayaraq, onlar heç bir torpaq itkisiylə barışmayacaqlar. Ruslara güzəşt təklifləri ilə bağlı səsləndirilən fikirlərə sərt cavab verən Zelenski rusların bütün bunları Avropada etdiklərini "təklifçilərə" xatırladır.

Qeyd edək ki, Ukrayna prezidenti ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin təklifini daha kəskin tənqid edib. Ona hazırda 1938-ci ildə yox, 2022-ci ildə yaşadığını və onun o vaxtkı Münhendə deyil, Davosda danışıqlara qatıldığını "xatırladıb".

Yeri gəlmişkən xatırladaq ki, mayın 25-də Davosda keçirilən Dünya İqtisadi Forumunda çıxışı edən Henri Kissincer Rusiyanı danışıqlara "qaytarmaq" üçün Ukraynadan güzəştə getməyi məsləhət bilmişdi. Onun fikrincə, Rusiya Federasiyası ilə Ukrayna arasında danışıqlar, aradan qaldırılması asan olmayacaq nəticələrə gətirib çıxarmazdan əvvəl, yəni yaxın iki ay ərzində başlamalıdır.



Qeyd edək ki, bu arada ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin açıqlamalarına münasibət bildirən Ukrayna prezidentinin aparat rəhbərinin müşaviri Mixail Podolyak onu "Davos həyəcançısı" adlandırıb.

Onu da qeyd edək ki, bir müddət bundan əvvəl Polşa prezidenti Anjey Duda bütün dünyanı Rusiya Federasiyası ilə əlaqələri kəsməyə çağırmışdı.

***Ağasəf Babayev***

# "Bəzi siyasi təşkilatlar qərəzli maraqlı güc mərkəzlərinin dəyirmanına su tökürlər"

**"Ölkədə iqtidarın yüksək ranqlı məmurunun müxalifət partiyaların liderləri ilə davamlı olaraq keçirdiyi görüşlər və bu görüşlərdə ölkənin ictimai siyasi, sosial iqtisadi məzmun daşıyan problemləri ətrafında aparılan müzakirələr siyasi sistemin təkmilləşdirilməsi, iqtidar və müxalifət arasında münasibətlərin sivil çərçivədə inkişaf etdirilməsi, konstruktivizmin təmin edilməsi baxımından ciddi əhəmiyyət kəsb edir". Bunu "Səs" qəzetinə açıqlamasında MDHP sədr müavini, politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, ölkənin mövcud problemləri, onları doğuran səbəblər, cəmiyyətdəki sosial kataklizmlərlə bağlı məsələlərə fərqli baxış və mövqelərin olmasına baxmayaraq aparılan dialoq ölkədə siyasi sabitliyin təmin olunmasında, fərqli siyasi, ideoloji konsepsiyalara malik olan siyasi partiyalar arasında münasibətlərin əsassız ittiham, radikalizmə deyil, konstruktiv əməkdaşlıq mühitində inkişafına əlverişli və münbit şərait yaradır: "Konstruktiv dialoq demokratiyanın təməl prinsiplərinə sayğı və ehtiramın nümayiş etdirilməsi ilə çoxluğun iradəsinin gözlənilməsi, azlığın isə konstitusion hüquqlarına hörmətin saxlanılması baxımından da hüquqi dövlət və demokratik cəmiyyət quruculuğunda müstəsna əhəmiyyətə malik arqumentlərdir. Sosial, iqtisadi, hüquqi və siyasi sistemdə islahatlara olan ehtiyacın meyarı məhz bu səpkili danışıqlar dönəmində müəyyən edilir".

E.Manafov onu da bildirdi ki, cəmiyyətdə milli birlik və vəhdətin bərqərar olmasında, siyasi baxışlarından asılı olmayaraq vətəndaşların azərbaycançılığın məfkurə dəyərləri ətrafında toparlanmasında aparılan dialoq siyasətinin özüməxsus rolu var: "Əslində, Ermənistana qarşı apardığımız müharibədə cəmiyyətdəki konsolidasiya, milli birlik və vəhdətin əldə edilməsi 44 günlük savaşda əldə etdiyimiz qələbənin mühüm səbəblərindən olmuşdur. Sağ müxalifəti təmsil edən məlum siyasi partiyanın iqtidarın dialoq təkliflərinə olan fərqli münasibət və mövqeyi isə onların iqtidarın daxili və xarici siyasəti ilə bağlı məsələlərə fərqli mövqe və baxışlarından irəli gəlir, ümummilli səciyyə təşkil edən problemlərə müxalifətin radikal kəsimini təşkil edən bu partiyaların mövqeyi əlbəttə korporativ mahiyyət kəsb edir və sırf fərqə maraqlarından irəli gəlir. İqtidarla münasibətləri sağlam məntiq, konstruktiv tənqid və təkliflər üzərində qura bilməyən bu siyasi təşkilatlar təəssüf ki, bununla dolayısı yolla da olsa ölkəmizdə qərəzli maraqları olan məlum güc mərkəzlərinin dəyirmanına su tökür, bununla da "5-ci kolonun" təmsilçiləri statusunda ölkədə ictimai rəyə təsir göstərmək, onu məlum hədəflərə kökləmək, bağlamaq istəyirlər, hərçənd məlum təşkilatların fəaliyyətində bu tendensiyaların olub olmaması ilə bağlı məsələlərə dövlətin xüsusi xidmət orqanları aydınlıq gətirməlidirlər".

***Gülyana***

# OLEQ BONDARENKO:
# "Qlobal böhran bütün dünyaya təsir edəcək"

**Proqressiv Siyasət Fondunun direktoru, Balkan ölkələri üzrə rusiyalı ekspert Oleq Bondarenko "Caliber" analitik mərkəzinə müsahibəsində dünyada hökm sürən siyasi, iqtisadi və hərbi böhranıla bağlı maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Oleq Vladimiroviç, hazırkı geosiyasi vəziyyət Balkanlara təsir edə bilərmi? Qitənin bu hissəsində yeni gərginlik ocaqlarının yaranması üçün real ilkin şərtlər varmı?***

- Balkanları bir neçə gərginlik ocağının qaldığı Avropanın qaynar toz çəlləyinə bənzətmək olar: Kosovo, Bosniya və Herseqovinadakı qeyri-müəyyən status. İnanıram ki, Qərb oradakı vəziyyəti partlatmaq istəsə, o zaman partlayış baş verəcək. Əgər Qərb sülh istəyirsə, onu saxlayacaq. Amma indiki mərhələdə hadisələri əvvəlcədən proqnozlaşdırmaq tamamilə düzgün deyil, hər an hər şey dəyişə bilər.

***- Qərbin Rusiya Federasiyası ilə bağlı siyasətini obyektiv qiymətləndirməyə çalışın...***

- Qərb faktiki olaraq Rusiya ilə açıq müharibə aparır. Üstəlik, müasir tarixdə belə bu müharibənin analoqu yoxdur. Bu, artıq "soyuq" deyil, silah təchizatı və digər məsələlərlə bağlı "isti" müharibədir. Bəli, etiraf etmək lazımdır ki, Qərb həmişəkindən daha möhkəmdir və biz Karib böhranını xatırlasaq, hələ Sovet İttifaqının güclü vaxtlarında belə vəziyyətə düşməmişik. Hesab edirəm ki, hazırkı vəziyyətdə Koreyadakı müharibə ilə müəyyən paralellər aparmaq olar.

***- Tam olaraq hansılar?***

- Koreya Müharibəsi İkinci Dünya Müharibəsindən sonra baş verdi və qismən onun nəticələrindən sonra planetdə təsir dairəsinin yenidən bölüşdürülməsini davam etdirən bir epizod idi. Orada iki dünya gücü toqquşdu, iki qalib - SSRİ və ABŞ. Ancaq bu, hələ də dünyanın periferiyasında lokal müharibə idi, pərdə arxasında yalnız bu iki tərəf iştirak edirdi. İndi biz tamamilə fərqli bir hekayə görürük- kollektiv Qərb və bununla da Avropada öz təsirini gücləndirməyə çalışan bəzi Avropa ölkələrinin, xüsusən də Polşa, Almaniya və Böyük Britaniyanın daha aqressiv davranışı.

***- Yaxın gələcəkdə Rusiyanın kollektiv Qərblə qarşıdurmada Çinlə möhkəmlənməsi mümkündürmü?***

- Bu, birmənalı cavab verməyin mümkün olmadığı çətin sualdır.

***- Avropa hələ də Rusiyanın karbohidrogenlərindən, kömürdən, titandan və digər məhsullarından imtina etmir. Bu, Rusiya ilə Avropa arasında münasibətlərdə yekun qırılmanın heç vaxt baş verməyəcəyi anlamına gəlirmi?***

- Bəli. Aydındır ki, yaxın illərdə Rusiya ilə Avropa arasında yekun fasilə olmayacaq. Onlar enerji sektorunda bir-birindən çox asılıdırlar. Beləliklə, yaxın gələcəkdə biz Avropa ilə sıx bağlıyıq və onunla qalırıq.

***- Qərbin Rusiyaya qarşı sanksiya siyasəti necə dəyişəcək?***

- Qərb Rusiyadan bütün qoşunlarını Ukrayna ərazisindən çıxarmağı tələb edir və bu şərt Moskva tərəfindən yerinə yetirilə bilməz. Qərb qoşunların çıxarılması ilə növbədə Donbass və Krımı nəzərdə tutur və Rusiya oradan çıxmayacaq. Eyni zamanda, anlamaq lazımdır ki, sanksiyalar tez bir zamanda aradan qaldırmaq üçün tətbiq edilmir. Qərbin Sovet İttifaqına qarşı sanksiyaları- 1974-cü ildə tətbiq edilən eyni Cekson-Venik düzəlişi 21-ci əsrə qədər qüvvədə idi və yalnız 2010-cu ildə, SSRİ-nin dağılmasından təxminən 20 il sonra ləğv edildi. Bu, sanksiyaların heç bir halda



ləğv edilmək üçün tətbiq edilmədiyinin bariz nümunəsidir.

Rusiyaya qarşı sanksiya rejiminin sərtləşdirilməsinə gəlincə, hesab edirəm ki, Qərb müəyyən mənada özünü dalana dirədi. Əslində, Rusiya Federasiyasının Qərbdə olan qızıl-valyuta ehtiyatlarının yarısı bloklanmayın, onlar sadəcə oğurlanıb. Bu vəsaitin bir hissəsinin Ukraynanın bərpasına yönəldilməsi ilə bağlı bəyanatları ancaq əsrin oğurluğu adlandırmaq olar. Sanksiya potensialı tükənib, onu daha da inkişaf etdirmək üçün heç bir yer yoxdur.






***- Rusiya iqtisadiyyatının Qərb sanksiyalarına uyğunlaşması nə qədər vaxt aparacaq?***

- Bu, kifayət qədər uzun prosesdir. Rusiya iqtisadiyyatını, eləcə də Avropa iqtisadiyyatını uyğunlaşdırmaq üçün bir neçə il lazım olacaq. Qlobal dünyada hamı bir-birindən asılıdır. Bəzi hallarda Rusiyadan da çox Avropanın özü sanksiyalardan əziyyət çəkib. Avropalı iş adamları bəzən rusiyalı həmkarlarından daha çox əziyyət çəkdikləri üçün saçlarını yolurlar. Onlar bazarı, məkan investisiyalarını, yaxşı biznes imkanlarını və s. itirdilər. Bir sözlə, indi onlar bu və ya digər şəkildə aradan qaldırılmalı olacaq bir çox problemlə üzləşirlər. Amma yenə də deyirəm, Avropa bazarını, eləcə də Rusiya bazarını yenidən istiqamətləndirmək üçün illər lazım olacaq. Ona görə də hazırda yaranmış geosiyasi vəziyyətdən ABŞ-dan başqa, həm də Avropa və Rusiya zərər çəkir.

***- Avropadan fərqli olaraq, ABŞ və Rusiya arasında münasibətlərin tamamilə kəsilməsindən danışmaq düzgündürmü?***

- Əslində indi Rusiya ilə ABŞ arasında heç bir münasibət yoxdur. Aydındır ki, səfirlər işləyir, etiraz notaları mübadiləsi aparılır, vaxtaşırı iki ölkənin hüquq-mühafizə orqanlarının nümayəndələrinin zəngləri olur. Ona görə də ABŞ-Rusiya münasibətlərinin gələcəyindən danışmağa ehtiyac yoxdur.

***- Dünyada və Rusiyada gələcək qlobal prosesləri necə görürsünüz?***

- Təəssüf ki, bütün dünyanın yaxın gələcəkdə gələcəyi mənə problemli görünür. Aydındır ki, qlobal tənəzzül qaçılmazdır: sosial, iqtisadi, işgüzar sahələrdə. Sovet İttifaqının dağılmasından sonra bəzi istehsal sahələri inkişaf etmədiyi üçün Rusiya 20-ci əsrin sonlarındaki istehsal səviyyəsinə qayıtmalı olacaq. Müvafiq olaraq, bir çox yerli texnoloji baza 80-ci illərin sonları səviyyəsində qalıb. Bu illər ərzində, o cümlədən Qərb texnologiyalarının alınması hesabına inkişaf etməyib. Nəticədə, hazırda Rusiyada öz istehsal bazasının yenidən yaradılması ilə bağlı problem var.

***- Qlobal ərzaq böhranı hamı üçün qaçılmaz olacaqmı?***

- Əlbəttə. Bu, təkcə Rusiyaya təsir etməyəcək. Beləliklə, bütün dünya çətin dövrlərə hazırlaşmalıdır.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

Səs
27 may
2022-ci il



# "Roma"
## Konfrans Liqasının ilk qalibi oldu

Futbol üzrə UEFA Konfrans Liqasında 2021/2022 mövsümünün final oyunu keçirilib. Belə ki, həlledici matçda İtaliyanın "Roma" və Hollandiyanın "Feyenoord" klubları üz-üzə gəlib. Albaniyanın paytaxtı Tiranadakı Milli Arenada keçirilən qarşılaşma İtaliya klubunun 1:0 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, ilk dəfə keçirilən bu turnirin qalibi Joze Mourinyonun komandası olub.



# "Yeniyetmənin inkişafında valideyn nəzarəti olmazsa..."

**"Yeniyetməlik yaş dönəminin özünün xüsusiyyətləri olur. Bunun da inkişaf dinamikası zamanla bu həddə çatır. Yeniyetməlik dövrü elə bir yaşdır ki, onlar məntiqləri ilə deyil, duyğuları ilə yaşayırlar". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova bildirib.**

Onun sözlərinə görə, yeniyetmə yaşı özünü mütəmadi yazıq sayan, daim özünü haqlı hesab edən yaş dövrüdür: "Bir çox faktorlar var ki, yeniyetmənin öhdəliyinə düşür. Yeniyetmə abituryentdir, oxumalıdır, ali məktəbə qəbul olmaq üçün çalışmalıdır və s. bu kimi fikirlər yeniyetmə üçün bir yük olur. Üstəlik hormonal dəyişiklik onların fizioloji quruluşuna təsir edir.

Valideynlərdən gələn tələblər də uşaqları yorur. Bütün bunlar yeniyetmətləri bezdirir. Onlar artıq hər mövzuda özlərini haqlı, qarşı tərəfi haqsız hesab edirlər. Yeniyetmətlər həm də çılğın olur və ağıllarına nə gəlirsə edirlər. Yeniyetmənin inkişafında valideyn nəzarəti olmazsa, o xaotik formada inkişaf edir. Özünün doğru bildiyi yanlışları ilə böyüyür.

Ümumiyyətlə valideyn uşağının psixi inkişafını izləməli, onun yanında olmalıdır. Yeniyetməni dinləmək lazımdır. Eyni zamanda bu dövrdə uşaqların cinsi tərbiyəsində olduqca vacibdir. Bir çox hallarda valideynlər bu kimi məsələləri uşaqları ilə danışmaqdan utanırlar. Lakin bu zaman da yeniyetməlik yaşından etibarən, hormonal dəyişikliklərə əsasən bilgiləri kənardan almağa çalışırlar. Kənardan aldıqları bilgilərin nə dərəcədə doğru olduğunu isə bilmirik. Buna görə də valideynlər yeniyetmə dövründə uşaqla necə davranmaq lazımdır ki, suallara cavab tapmalı və bu mövzuda maariflənməlidir".

*Səbinə Hüseynli*


## Səyahətini "Nar"ın Rouminq 18 paketi ilə salamla!




Yaxınlarınızla daim ünsiyyətdə qalmaq, çevik mobil rabitə xidmətlərindən istifadə etmək üçün "Nar" müxtəlif və sərfəli rouminq paketləri təqdim edir. Səyahət zamanı daha çox mobil internetə ehtiyacınız varsa, "Rouminq 18" paketini sifariş etməklə 1GB mobil internet, həmçinin, pulsuz "WhatsApp" yazışmalarından faydalana biləcəksiniz. "Rouminq 18" paketini "Nar+" tətbiqində müvafiq bölmədən və ya *777#718#YES kodunu yığmaqla aktivləşdirə bilərsiniz.

Balansınızı hətta xaricdə olarkən də nəzarətdə saxlamaq, internet istifadəsini yoxlamaq, yeni paket sifariş etmək və digər nömrə əməliyyatları üçün "Nar+" tətbiqi səfərinizə rahatlıq qatacaq. Qeyd edək ki, paketlər həm səfərdən öncə, həm də səfər müddətində sifariş oluna bilər. Rouminq paketləri ilə bağlı daha ətraflı məlumatı nar.az/roaming-packages səhifəsindən əldə edə bilərsiniz. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Şirkət son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.


# "Yürüş insanın bir nömrəli dərmanıdır"

## QİDA MÜTƏXƏSSİSİ AÇIQLADI

**"Ümumiyyətlə hər yeməkdən sonra el sözü var ki, "40 addım atmaq lazımdır". Təbii ki, yürüş insanın bir nömrəli dərmanıdır. Xüsusilə də ürək-qan damar sistemi üçün çox faydalıdır. Ürək həkimləri də hər zaman insanlara yürüşü məsləhət görür". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov bildirib.**

Onun sözlərinə görə, yürüş edən insanda metobolizma sürətlənir və rahat həzm prosesinə səbəb olur: "Metobolizmanın sürətlənməsi də qidaların həzmini asanlaşdırır. Eyni zamanda bu həm də fiziki aktivlikdir. İnsan orqanizmi üçün hər zaman faydalıdır. Yemək yedikdən sonra ağır atletika, müəyyən idmanlarla məşğul olmaq olmaz. Amma yürüş üçün heç bir problem yoxdur, əksinə faydaları daha çoxdur.

Yürüş edən zaman çalışmaq lazımdır ki, səhər saatlarında, yəni günəş çıxandan saat 11-ə kimi olan vaxtda yürüş edə bilərlər. Lakin daha sonra günəş şüaları altında yürüş etməyin heç bir faydası yoxdur. Axşam saatlarında, yəni saat 17:00-dan sonra da gün batana qədər gəzdikdə də "D" vitamini qəbul etmiş olacaqlar ki, bu da immun sistemini gücləndirəcək".

*Səbinə Hüseynli*



## ELAN

1.Ermənistan Respublikası Komitats rayonu Qızılyurdovi kənd nümayəndəliyi tərəfindən Əskərov Rəşid Lətif oğlunun adına verilmiş 5 mart 1983-cü il tarixli II SL 308942 saylı Nikah haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3220**